

Milli Hematologiya və Transfuziologiya Mərkəzinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı 3



Azərbaycanın səhiyyə qanunvericiliyinə dəyişikliklər olundu 3



Nazirlər Kabinetində icbari tibbi sığorta ilə bağlı müşavirə keçirilib 2


# TİBB qəzeti

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

№ 23-24 (687) 30 dekabr 2019-cu il   Qəzet 1991-ci ildən nəşr olunur   www.tibbqazeti.az


## Birinci vitse-prezident Mehriban Əliyeva Uşaq Psixonevroloji Mərkəzində əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub



2

## Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Milli Onkologiya Mərkəzinin Uşaq Klinikasında müalicə alan uşaqları ziyarət edib



2

## Səhiyyə Nazirliyində ilin yekun kollegiya iclası keçirilib



5


Tel: (994 12) 530 15 15
530 41 67
530 41 68
Faks: (994 12) 530 44 44

ARASH
MEDICAL COMPANY





www.arash.az


## Tibb Universitetinin Anatomiya kafedrasının 100 illiyi qeyd olunub



11

### *Афоризм*

*Кто хочет - ищет возможности. Кто не хочет - ищет причины.*

*Авраам Линкольн*

# Birinci vitse-prezident Mehriban Əliyeva Uşaq Psixonevroloji Mərkəzində əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Heydər Əliyev Fondu tərəfindən Uşaq Psixonevroloji Mərkəzində aparılan əsaslı təmir işlərindən sonra yaradılan şəraitlə tanış olub, mərkəzin yeni korpusunun açılışında iştirak ediblər.**

Birinci vitse-prezident Mehriban Əliyeva Uşaq Psixonevroloji Mərkəzində yaşayan və müalicə alan, xüsusi təhsilə yiyələnən uşaqlar üçün yaradılmış şəraitlə maraqlanıb.

Məlumat verilib ki, uşaqların müayinə və müalicəsi üçün geniş və müasir mərkəzin yaradılmasının zəruri olduğunu nəzərə alaraq, 2009-cu ildə Heydər Əliyev Fondu Bakı şəhərində Uşaq Psixonevroloji Mərkəzi inşa etdirib. Fondun prezidenti Mehriban Əliyeva və vitse-prezidenti Leyla Əliyeva mütəmadi olaraq Mərkəzdə uşaqlara baş çəkirlər.

Mərkəzdə əsasən autizm, serebral iflic, əqli gerilik və ləngimələrdən əziyyət çəkən uşaqlar müalicə olunurlar. 2015-ci ildə təmir edilən bina bu il Heydər Əliyev Fondu tərəfindən yenidən əsaslı təmir olunub və əlavə 2 mərtəbəli yeni korpus inşa edilib. Yüz çarpayılıq Mərkəzdə 100-ə yaxın uşaq tibbi xidmətlərdən yararlanır. Valideyn himayəsindən məhrum olan 24 uşaq isə stasionar şəraitdə Uşaq evi şöbəsində müalicə alır.

Uşaq Psixonevroloji Mərkəzinin yeni inşa edilən korpusu ilə tanışlıqdan sonra Birinci vitse-prezident Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva burada müalicə alan uşaqlarla birgə qarşıdan gələn 31 dekabr — Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramlarını qeyd ediblər.

Uşaqların iştirakı ilə Yeni ilə həsr edilən səhnəcik təqdim olunub.

Sonda xatirə şəkli çəkdirilib.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Milli Onkologiya Mərkəzinin Uşaq Klinikasında müalicə alan uşaqları ziyarət edib

**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Milli Onkologiya Mərkəzinin Uşaq Klinikasında müalicə alan uşaqları ziyarət edib, onların səhhəti, müalicələrinin gedişi ilə maraqlanıb.**





Görüş zamanı «Cırtdan. Novruz macərası» adlı ailəvi meqaşoudan əldə edilən vəsaitlə Milli Onkologiya Mərkəzinin Uşaq şöbəsinə uşaqların müalicəsi üçün lazım olan dərman preparatları, eyni zamanda, burada müalicə alan uşaqların əylənməsi üçün xüsusi kompüter oyunları, müxtəlif oyuncaqlar və hədiyyələr təqdim edilib.

Əyləncəli tədbir uşaqların böyük sevinci ilə qarşılanıb və onların əhval-ruhiyyəsinə müsbət təsir edib.

«Cırtdan nağıllar aləmində» adlı ailəvi meqaşou ilk dəfə 2018-ci ilin dekabrında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Bakı Konqres Mərkəzində təşkil edilib. Bu təşəbbüs gələcəyimiz olan uşaqların milli ruhda böyüməsi, eyni zamanda, onların bəşəri dəyərlərə hörmət ruhunda tərbiyə almasına mühüm töhfələr verir. Həmçinin xeyriyyə xarakteri daşıyan layihədən əldə edilən gəlir xüsusi qayğıya ehtiyacı olan insanların, o cümlədən uşaqların sağlamlığının bərpa və təmin olunmasına yönləndirilir.

Qeyd edək ki, ötən ilki şoudan əldə olunan 397 min manat məbləğində gəlir 2019-cu ilin fevral ayında uşaqların müalicəsi məqsədilə Talassemiya Mərkəzinə təqdim edilmişdi.

# Autizm sindromlu uşaqlar üçün Reabilitasiya Mərkəzində bayram şənliyi təşkil olunub

## *Birinci vitse-prezident Mehriban Əliyeva şənlikdə iştirak edib*

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Bakının Nərimanov rayonunda "Birgə və Sağlam" İctimai Birliyinin nəzdində fəaliyyət göstərən autizm sindromlu uşaqlar üçün Reabilitasiya Mərkəzində oldular.



Birinci vitse-prezident Mehriban Əliyeva 31 dekabr — Dünya Azərbaycanlılarının Həmrəylik Gününü və Yeni il bayramını Heydər Əliyev Fondunun dəstəyi ilə fəaliyyət göstərən autizm sindromlu uşaqlar üçün Reabilitasiya Mərkəzində qeyd edib.

Autizmli uşaqlar öz istedadlarını nümayiş etdiriblər.

Birinci vitse-prezident Mehriban Əliyeva Mərkəzin nəzdində fəaliyyət göstərən xor kollektivi ilə birgə mahnı ifa edib.

Sonra Mehriban xanım Əliyeva uşaqlarla birgə tort bişirib, onlarla söhbət edib.

Mərkəzin yetirməsi olan, hazırda Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin ikinci kursunda təhsil alan Əlisahib Bayramov və digər uşaqlar pianoda müxtəlif musiqi nömrələri ifa ediblər.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da musiqi ifa edib.

Daha sonra Birinci vitse-prezident və autizmli uşaqlar birgə bişirdikləri tortla çay süfrəsi ətrafında toplaşıblar.

İctimai Birliyin sədri Aytən Eynalova bildirib ki, hazırda bu Mərkəzdə 70-dək uşaq intensiv terapiyadan faydalanır. Burada autizm sindromlu uşaqların qayğısı ilə müvafiq təlim keçmiş mütəxəssislər məşğul olurlar.

Birinci vitse-prezident Mehriban Əliyeva Mərkəzin kollektivini, burada müalicə alan uşaqları və ailə üzvlərini Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə təbrik edib, onlara uğurlar arzulayıb.

# Nazirlər Kabinetində icbari tibbi sığorta ilə bağlı müşavirə keçirilib

**2020-ci il yanvarın 1-dən etibarən ölkəmizdə mərhələli şəkildə icbari tibbi sığorta sisteminin tətbiqi həyata keçiriləcək.**



Azərbaycan Respublikasının Nazirlər Kabinetində Baş Nazir Əli Əsədovun sədrliyi ilə icbari tibbi sığorta ilə əlaqədar indiyə qədər görülən işlər və gələn ildən bu sistemin ölkə üzrə mərhələli tətbiqi ilə bağlı müşavirə keçirilib.

Toplantıda çıxış edən Baş Nazir Əli Əsədov deyib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2016-cı ildən başlayaraq icbari tibbi sığorta sahəsində bir sıra vacib fərman və sərəncamlar imzalayıb. 2017-ci ildən etibarən isə ölkəmizdə icbari tibbi sığortanın pilot layihə şəklində tətbiqinə başlanılıb. Mingəçevir şəhəri, Yevlax və Ağdaş rayonlarında həyata keçirilən icbari tibbi sığorta çərçivəsində 370 min nəfərə yaxın sığortaolunan baza zərfi əsasında ödənişsiz tibbi xidmətlərlə təmin edilib.

*(Ardı səhifə 4-də)*

# Milli Hematologiya və Transfuziologiya Mərkəzinin yaradılması haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə qan, qan komponentlərinin donorluğu və qan xidməti sahəsində dövlət fəaliyyətinin səmərəliliyini daha da artırmaq və sistemliliyini təmin etmək, əhalinin qan, qan komponentlərinə olan tələbatını ödəmək, habelə qanın, qan komponentlərinin tədarükü, emalı, saxlanması və bölüşdürülməsi zamanı beynəlxalq standartların tətbiq edilməsi məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan Talassemiya Mərkəzi publik hüquqi şəxsin və B.Ə.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun birləşmə formasında yenidən təşkili yolu ilə «Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyi» publik hüquqi şəxsin (bundan sonra — TƏBİB) tabeliyində publik hüquqi şəxs statuslu Milli Hematologiya və Transfuziologiya Mərkəzi (bundan sonra — Mərkəz) yaradılsın.

**2.** Müəyyən edilsin ki:

2.1. Mərkəzin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti üç üzvdən ibarət Müşahidə Şurası həyata keçirir;

2.2. Mərkəzin fəaliyyətinə cari rəhbərliyi İcraçı direktor həyata keçirir.

**3.** Mərkəzin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

3.1. Azərbaycan Respublikasının Prezidentinə:

3.1.1. Mərkəzin yenidən təşkili və ləğv edilməsi;

3.1.2. Mərkəzin idarəetmə orqanlarının yaradılması;

3.2. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə:

3.2.1. Müşahidə Şurasının sədr və digər üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

3.3. TƏBİB-ə:

3.3.1. bu Fərmanın 3.1-ci və 3.2-ci bəndlərində qeyd edilənlər istisna olmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**5.** TƏBİB:

5.1. Mərkəzin nizamnaməsini, strukturunu, işçilərinin say həddini və əməkhaqlarını (o cümlədən əməkhaqqına əlavələri, mükafatları və digər ödənişləri) bir ay müddətində təsdiq etsin;

5.2. Mərkəzin nizamnaməsi təsdiq edildiyi gündən üç gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə müraciət etsin;

5.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**6.** Mərkəz dövlət qeydiyyatına alındığı günədək Talassemiya Mərkəzi publik hüquqi şəxs və B.Ə.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutu fəaliyyətlərini davam etdirsinlər.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 23 dekabr 2019-cu il.*

# Ə.V.Musayevin 3-cü dərəcəli «Əmək» ordeni ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Əlişir Veys oğlu Musayev 3-cü dərəcəli «Əmək» ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 9 dekabr 2019-cu il.*

# Tibb işçiləri təltif edildilər

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Azərbaycan Respublikasında idmanın inkişafında xidmətləri olan bir qrup şəxsə fəxri adların verilməsi haqqında» Sərəncam imzalayıb.**

Sənədə əsasən, Azərbaycanda idmanın inkişafında xidmətləri olan bir qrup şəxsə «Əməkdar bədən tərbiyəsi və idman xadimi», «Əməkdar həkim» və «Əməkdar jurnalist» fəxri adları verilib. O cümlədən, Natiq Avil oğlu Əliyev və Emiliya Əşrəf qızı Hüseynova «Əməkdar həkim» fəxri adı ilə təltif ediliblər.

# Səhiyyə qanunvericiliyinə dəyişikliklər olundu

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Məclisin qəbul etdiyi «Tibbi sığorta haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Qanunu imzalayıb.**

Dəyişikliklərə əsasən, Qanunun 1.0.1-ci maddəsindən «baza və əlavə hissələrdən ibarət olmaqla» sözləri çıxarılıb, 1-ci maddədə «sığortalı», «sığortaolunan», «sığorta ödənişi», «sığorta hadisəsi», «tibbi ərazi bölməsi» anlayışları yeni redaktədə verilib, «müştərək maliyyələşmə məbləği», «tibb müəssisəsi» əsas anlayışlarının şərhi əlavə olunub.

Qanunun «İcbari tibbi sığorta üzrə sığortalı və sığortaolunanlar» adlanan 15-2-ci, «İcbari tibbi sığorta üzrə sığorta haqları» adlanan 15-10-cu, «İcbari tibbi sığorta haqlarının hesablanması, ödənilməsi və hesabatın təqdim olunması» adlanan 15-11-ci, «İcbari tibbi sığorta şəhadətnaməsi» adlanan 15-13-cü, «Müştərək maliyyələşmə məbləği» adlı 15-18-ci, «Gözləmə müddəti» adlı 15-29-cu maddələri yeni redaksiyada verilib.

Qanuna aşağıdakı məzmunda 16-4-cü maddə əlavə edilib:

«Maddə 16-4. Keçid müddəaları

16-4.1. İcbari tibbi sığorta ölkənin inzibati ərazi vahidləri üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş ardıcıllıq nəzərə alınmaqla, 2020-ci ildə tamamlanmaq şərtilə mərhələli şəkildə tətbiq olunur.

16-4.2. Bu Qanunun 16-4.1-ci maddəsinə əsasən müəyyən edilmiş mərhələlərə uyğun olaraq, bu Qanunun 15-10.1.1-ci maddəsində nəzərdə tutulan sığorta haqqının ödənilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

16-4.3. Bu Qanunun 15-10.1.2-ci maddəsində nəzərdə tutulan əməkhaqqının 8000 manatadək hissəsindən ödənilən sığorta haqqının məbləğinə neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən sahələr üzrə 2021-ci il yanvarın 1-dək 50 faiz güzəşt tətbiq edilir. Bu maddənin məqsədləri üçün neft-qaz sahəsində fəaliyyətin və qeyri-dövlət sektorunun meyarları Azərbaycan Respublikasının Vergi Məcəlləsinə və «Sosial sığorta haqqında» Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada müəyyən edilir.

16-4.4. Bu Qanunun 15-9.1.6-cı, 15-10.1.2-ci, 15-10.1.3-cü, 15-10.1.4-cü, 15-10.1.6-cı, 15-17.2.3-cü, 15-18-ci maddələri, habelə müştərək maliyyələşmə məbləğinə aid hissələrdə 15-28.3-cü və 15-28.4-cü maddələri 2020-ci il aprelin 1-dən qüvvəyə minir.

16-4.5. Bu Qanunun 15-10.1.5-ci maddəsi 2023-cü il yanvarın 1-dən qüvvəyə minir.

16-4.6. Bu Qanun (16-4.4-cü və 16-4.5-ci maddələrdə nəzərdə tutulan maddələr istisna olmaqla) 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.».

Yeni qanuna əsasən, «Tibbi sığorta haqqında» Azərbaycan Respublikasının Qanununa bir sıra digər əlavələr və dəyişikliklər də olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Tibbi sığorta haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2019-cu il 3 dekabr tarixli 1718-VQD nömrəli Qanununun tətbiqi və «Tibbi sığorta haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1441-VQD nömrəli Qanununun tətbiqi və «Tibbi sığorta haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 241 nömrəli Fərmanının ləğv edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 31 yanvar tarixli 502 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə» Fərman da imzalayıb.

Yeni sənəddə Qanunun müxtəlif maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini həyata keçirən orqan (qurum), o cümlədən Azərbaycan Respublikasının Prezidentinin, Nazirlər Kabinetinin, Maliyyə Nazirliyinin, İqtisadiyyat Nazirliyinin, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi qismində İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin nəzərdə tutulduğu müəyyən edilir.

Fərmanda Nazirlər Kabinetinə, Maliyyə Nazirliyinə, İqtisadiyyat Nazirliyinə və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə «Tibbi sığorta haqqında» Qanunun tətbiqi ilə bağlı göstərişlər verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmçinin «Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında» 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanında dəyişiklik və «Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində Talassemiya Mərkəzinin yaradılması haqqında» 2017-ci il 13 noyabr tarixli 1680 nömrəli Fərmanının ləğv edilməsi barədə» Fərman da verib.

# Nazirlər Kabineti dərman vasitələri ilə bağlı iki sənəd qəbul etdi

Nazirlər Kabineti «Dərman vasitələrinin farmakonəzarət Qaydası»nı təsdiqləyib.

Bu sənəd əhalinin daha təhlükəsiz və effektli dərman vasitələri ilə təmin edilməsi, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi və mövcud boşluqların aradan qaldırılması məqsədilə hazırlanıb.

Farmakonəzarətin təşkili dərman vasitələrinin əlavə təsirlərinin izlənməsinə, qeydiyyata alınmasına, qiymətləndirilməsinə, müvafiq tədqiqatların aparılmasına və bu sahədə zəruri tədbirlərin görülməsinə dair icra mexanizmlərini tənzimləyəcək. Eyni zamanda, sənəddə dərman vasitələrinin əlavə təsirlərinin izlənilməsində və aşkarlanmasında tibb işçiləri və dərman şirkətlərinin məsuliyyət və vəzifələri də müəyyən edilib.

Qəbul olunmuş Qayda mülkiyyət və təşkilati hüquqi formasından asılı olmayaraq bütün müalicə-profilaktika müəssisələrinə, dərman vasitəsinin dövlət qeydiyyatı haqqında vəsiqənin sahibi və onun müvəkkil etdiyi şəxslərə şamil olunur.

Dərman vasitələrinin farmakonəzarət qaydasının qəbul edilməsi ölkəmizdə farmakonəzarət sisteminin qurulmasına və inkişafına imkan verəcək, dərman dövriyyəsinin bütün iştirakçılarının məsuliyyətini artıracaq, əhalinin təhlükəsiz və keyfiyyətli dərman vasitələri ilə təmin edilməsi üçün zəmin yaradacaq.

Nazirlər Kabineti həmçinin «Dərman vasitələrinin ekspertizasının aparılması Qaydası»nı təsdiqləyib.

Dərman vasitələrinin dövlət qeydiyyatı və onların keyfiyyətinə nəzarətin gücləndirilməsi məqsədilə hazırlanmış bu sənəd ölkə ərazisinə idxalı zamanı, habelə dövlət orqanlarının və fiziki və ya hüquqi şəxslərin müraciəti əsasında dərman vasitələrinin ekspertizasının aparılmasının icra mexanizmini tənzimləyir.

Dərman vasitələrinin ekspertizasının aparılması qaydasının qeydiyyat qaydalarından ayrılıqda müəyyən olunması bu sahədəki qeyri-müəyyənliyi aradan qaldıracaq. Preparatların keyfiyyətinin, təhlükəsizliyinin və effektivliyinin müəyyən edilməsi məqsədilə onların ekspertizasının aparılması bu sahədə mövcud olan problemləri aradan qaldırmağa imkan yaradacaq və əhalinin sağlamlığının mühafizəsinə xidmət edəcək.

# Nazirlər Kabinetində icbari tibbi sığorta ilə bağlı müşavirə keçirilib

*(Əvvəli 2-ci səhifədə)*

Bir çox ölkələrin səhiyyə sistemində geniş şəkildə tətbiq edilən icbari tibbi sığortanın ölkəmizdə həyata keçirilməsi ilə bağlı Prezident İlham Əliyevin verdiyi qərar dövlət siyasətinin mərkəzində insan amilinin durduğunu bir daha sübut etdi. 2020-ci il yanvarın 1-də qüvvəyə minəcək qanuna əsasən, əhalinin sığortalanmasına dövlət tərəfindən adambaşına 90 manat olmaqla 900 milyon manat vəsait ayrılacaq. Bu, dövlət tərəfindən aparılan sosialyönümlü siyasətin və əhaliyə göstərilən qayğının bariz nümunəsidir.

Bildirilib ki, icbari tibbi sığorta pensiyaçılar, aztəminatlı təbəqələr və 18 yaşınadək şəxslər də daxil olmaqla 4,4 milyon vətəndaşı əhatə edəcək. İcbari tibbi sığortanın tətbiqi mərhələli şəkildə baş tutacaq. Belə ki, yanvarın 1-dən Naxçıvan Muxtar Respublikasının ərazisində və ölkənin şimal bölgəsindəki 23 rayonda, aprelin 1-dən qərb bölgəsinin 20 regionunda, iyulun 1-dən cənub bölgəsində 15 rayonda, oktyabrın 1-dən isə Bakı, Sumqayıt, Abşeronda tətbiq olunacaq. Beləliklə, 2020-ci ilin sonuna qədər Azərbaycanın bütün bölgələrində əhali icbari tibbi sığorta sisteminə qoşulacaq.

Müşavirədə Azərbaycan Respublikasının Səhiyyə naziri Oqtay Şirəliyev çıxış edərək, ölkə səhiyyəsinin icbari tibbi siğortaya hazırlığı məsələlərindən danışıb. O qeyd edib ki, ölkəmizdə tibbi sığortaya keçid düşünülmüş, mərhələli şəkildə nəzərdə tutulub. Həm başqa ölkələrin, həm də artıq üç ildir fəaliyyət göstərən İcbari Sığorta üzrə Dövlət Agentliyinin təcrübəsi göstərir ki, tibbi sığortanın uğurlu fəaliyyəti maliyyə dəstəyi ilə yanaşı, bir neçə amillə, ilk olaraq səhiyyənin maddi-texniki bazası ilə bağlıdır: «Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin, ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın səyi, böyük zəhməti sayəsində çox qısa müddətdə ölkədə yüzlərlə yeni xəstəxana, poliklinika, diaqnostika mərkəzi tikilib, əsaslı təmir olunub, ən müasir avadanlıqlarla təchiz edilib. Vaxtilə adi rentgen müayinəsi üçün xəstəni rayondan Bakıya gətirirdilərsə, indi rayon xəstəxanalarında kompüter tomoqraflar, müasir əməliyyatxanalar var, orada ən mürəkkəb əməliyyatlar aparmaq olur. Bir müddət əvvəl ölkə rəhbəri qarşımızda vəzifə goymuşdu ki, hər bir vətəndaş yaşadığı yerdən asılı olmayaraq, hər bir regionda tam həcmdə tibbi xidmət ala bilsin. Artıq bu reallıqdır».

Nazir vurğulayıb ki, icbari tibbi sığorta uçun daha bir vacib məsələ kadr potensialıdır: «Son illərdə tibb təhsili sistemində böyük islahatlar aparılıb. Yerli və xarici rezidentura, həkimlərin sertifikasiyası, davamlı tibbi təhsil, tanınmış Avropa klinikalarında təcrübə keçmək imkanı - bütün bunların nəticəsidir ki, indi ölkədə ən müasir müalicə üsulları tətbiq olunur və onlar da məhz bizim həkimlər tərəfindən həyata keçirilir».

Səhiyyə naziri yekun olaraq qeyd edib ki, səhiyyəmizin hazırkı maddi-texniki bazası, kadr potensialı və agentliyin pilot regionlarda əldə etdiyi müsbət nəticə onu deməyə əsas verir ki, səhiyyənin yeni maliyyələşmə modelinin bütün ölkədə mərhələli şəkildə tətbiqinə hər cür şərait var.

Müşavirədə Maliyyə naziri Samir Şərifov icbari tibbi sığorta sisteminin maliyyə təminatından, İcbari Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev sistemin tətbiqinə hazırlıq tədbirlərindən və görüləcək işlərdən danışıblar.

# Milli Məclisin plenar iclası keçirilib

**Milli Məclisin növbəti plenar iclasında əvvəlcə Milli Məclisin Sədri Oqtay Əsədov gündəliyi təqdim edib.**

Gündəlik təsdiqləndikdən sonra Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov «Tibbi sığorta haqqında» Qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) məsələni təqdim edib. Sənəddə sığorta faizlərinə və keçid müddəalarına dair maddələrdə aparılmış dəyişiklik ətraflı şərh olunub.

Deputatlar 2020-ci il yanvarın 1-dən etibarən Azərbaycanda tətbiq olunması nəzərdə tutulan icbari tibbi sığortaya keçidin hüquqi bazasını təmin edəcək qanunu üçüncü oxunuşda qəbul ediblər.

İclasda digər qanun layihələri də müzakirə olunub.

# Səhiyyə naziri Neftçalada vətəndaşları qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin bölgələrdə səyyar qəbul günləri təşkil olunur. Bu görüşlərdə vətəndaşların müxtəlif məsələlərlə bağlı müraciətlərinə baxılır, onların həlli istiqamətində tədbirlər görülür.**

Tərtib edilmiş cədvələ uyğun olaraq, Səhiyyə naziri Oqtay Şirəliyevin bu qəbildən növbəti qəbul günü Neftçala Rayon Mərkəzi Xəstəxanasında keçirilib. Nazir rayon sakinlərinin sağlamlıq problemləri, işlə təminat və s. məsələlərlə bağlı müraciətlərini dinləyib.

Qəbulda qaldırılan məsələlər nazirliyin müvafiq qurumlarının əməkdaşlarının iştirakı ilə araşdırılıb. Onların bəziləri yerindəcə həll edilib, digərlərinin həlli ilə bağlı göstərişlər verilib.

Nazirliyin səlahiyyətlərinə aid olmayan müraciətlər aidiyyəti üzrə çatdırılmaq üçün qeydiyyata alınıb və nəzarətə götürülüb.

# Ordubad və Babək rayonlarında icbari tibbi sığorta tətbiq olundu

Naxçıvan Muxtar Respublikasında Ordubad və Babək rayonlarında icbari tibbi sığortanın tətbiqinə başlanıb.

Ordubadda bununla bağlı keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iştirak edib.



Naxçıvan Muxtar Respublikasının Səhiyyə naziri Niyazi Novruzov çıxış edərək, muxtar respublikada səhiyyənin inkişafı istiqamətində həyata keçirilən tədbirlərdən danışıb. Bildirib ki, Ordubad rayonunda icbari tibbi sığortaya keçidlə bağlı işlərə bu ilin noyabr ayından başlanılıb. Bu rayonda əhaliyə Rayon Mərkəzi Xəstəxanası, 12 həkim ambulatoriyası və 27 feldşer-mama məntəqəsi vasitəsilə tibbi xidmət göstərilir. Niyazi Novruzov yaradılan şəraitə görə səhiyyə işçiləri adından Ali Məclisin Sədrinə minnətdarlıq edib.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin direktoru Samiq Sadıxov muxtar respublikada icbari tibbi sığortanın tətbiqi üçün görülən işlərdən danışıb, bildirib ki, burada yeni sistemin tətbiqi təkamül yolu ilə aparılıb, tələb olunan kadr, avadanlıq, təlim, resurs və infrastruktur təminatı uğurla həyata keçirilib. Artıq Sədərək, Şərur, Kəngərli və Şahbuz rayonlarında bu iş başa çatdırılıb. Samiq Sadıxov Ordubad rayonunda icbari tibbi sığortanın tətbiqi məqsədi ilə görülən işləri diqqətə çatdırıb.

Tibb bacısı Elnarə Həmdiyeva səhiyyə sahəsinə göstərilən qayğıya görə tibb işçiləri adından minnətdarlıq edib, yaradılan şəraitdən istifadə edərək əhaliyə hərtərəfli səhiyyə xidməti göstərəcəklərinə söz verib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Ordubad rayonunda icbari tibbi sığortanın tətbiqi münasibətilə rayon əhalisini və tədbir iştirakçılarını təbrik edib, deyib ki, əhaliyə keyfiyyətli səhiyyə xidməti göstərilməsinin müasir yolu icbari tibbi sığortanın tətbiqidir: «Lakin lazımi səhiyyə infrastrukturu yaratmadan bu işi həyata keçirmək mümkün deyil. Ona görə də xəstəxanalara kompüter proqramı təminatı üçün fiberoptik kabel çəkilib, internetlə təmin olunub. Səhiyyə müəssisələri — rayon mərkəzi xəstəxanaları, sahə xəstəxanaları, həkim ambulatoriyaları və feldşer-mama məntəqələri yenidən qurulub, müasir tibbi avadanlıqlarla təmin olunub, yeni texnologiyalar tətbiq edilib. Görülən işlərin nəticəsidir ki, muxtar respublikada səhiyyə xidmətinin səviyyəsi yüksəlib. Ordubad rayonunda da bu sahədə əhəmiyyətli tədbirlər görülüb, səhiyyə sistemi müasir tələblər səviyyəsində qurulub. Naxçıvan Muxtar Respublikasında icbari tibbi sığortanın baza zərfinə daxil olan 1525 tibbi xidmətin 700-ə yaxını Ordubad rayonundakı səhiyyə müəssisələri tərəfindən həyata keçiriləcək. Rayonda yaradılan müasir səhiyyə infrastrukturu, görülən işlər gələcəkdə göstərilən tibbi xidmətlərin sayının artmasına və əhalinin hərtərəfli tibbi xidmətlə təmin olunmasına imkan verəcək, 50 mindən artıq rayon əhalisi öz yaşadıqları ərazidə bu xidmətlərdən faydalanacaq».

Ali Məclisin Sədri vurğulayıb ki, icbari tibbi sığortanın tətbiqi ilə Ordubad Rayon Mərkəzi Xəstəxanasının həkim və tibb işçilərinin əməkhaqları 50 faiz artırılacaq. Vasif Talıbov kollektivə fəaliyyətində uğurlar arzulayıb.

Analoji tədbir Naxçıvan Muxtar Respublikasının Babək rayonunda da təşkil olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun iştirak etdiyi tədbirdə Naxçıvan Muxtar Respublikasının Səhiyyə naziri Niyazi Novruzov rayonda icbari tibbi sığortaya hazırlıq məqsədi ilə görülən işlərdən danışıb.

Tədbirdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin direktoru Samiq Sadıxov, tibb bacısı Həmidə Quliyeva çıxış edərək, tibbi sığorta sisteminin tətbiqinin açdığı imkanlardan danışıblar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov icbari tibbi sığortanın tətbiqi münasibətilə rayon əhalisini və tədbir iştirakçılarını təbrik edib. Qeyd edib ki, muxtar respublika sakinləri icbari tibbi sığortanın baza zərfinə daxil olan 1525 adda tibbi xidmətdən yararlanırlar. Babək Rayon Mərkəzi Xəstəxanasında isə bu tibbi xidmətlərdən 641-i tətbiq olunacaq. Yaradılan şərait və peşəkar tibbi heyətin formalaşması bu işlərin uğurla həyata keçirilməsinə imkan verəcək.

Qeyd edilib ki, Babək rayonunda 76 mindən artıq əhaliyə Rayon Mərkəzi Xəstəxanası, 2 sahə xəstəxanası, 13 həkim ambulatoriyası və 18 feldşer-mama məntəqəsi vasitəsilə tibbi xidmət göstərilir. 500-ə yaxın tibbi heyət əhalinin sağlamlığı keşiyində dayanır.

Ali Məclisin Sədri əhaliyə lazımi səviyyədə tibbi xidmətin göstəriləcəyinə əminliyini bildirib, kollektivə uğurlar arzulayıb.

# Səhiyyə Nazirliyində ilin yekun kollegiya iclası keçirilib

**Səhiyyə Nazirliyində keçirilmiş geniş tərkibli kollegiya iclasında 2019-cu il ərzində Nazirlik tərəfindən görülmüş işlər müzakirə olundu.**



**Səhiyyə naziri Oqtay Şirəliyev**in sədrliyi ilə keçən iclasda qısa giriş nitqi söyləyən nazir toplantıda İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyevin və «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» publik hüquqi şəxsin (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlının qonaq qismində iştirak etdiklərini dedi.

Kollegiya iclasında ilk olaraq **Tibbi yardımın təşkili şöbəsinin müdiri Gülmirzə Poladov** ilin yekunları ilə bağlı hesabat məruzəsi ilə çıxış etdi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin düşünülmüş siyasəti, möhkəm iradəsi sayəsində son illər ərzində səhiyyəmizin mütəmadi olaraq inkişaf etdiyini söyləyən şöbə müdiri vurğuladı ki, dövlət başçısının və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın sosial yönümlü siyasətinin nəticəsi olaraq, Azərbaycanda yeni tibb ocaqları tikilir, tibb müəssisələrinin siması dəyişir, maddi-texniki bazası gücləndirilir, təminatı yaxşılaşdırılır: «Bu sahədə fəaliyyət — səhiyyə müəssisələrinin tikintisi, əsaslı təmiri və müasir avadanlıqlarla təchiz edilməsi bu il də davam etdirilib. 2019-cu ildə yeni tikilmiş Qobustan Rayon Mərkəzi Xəstəxanası əhalinin istifadəsinə verilib, Buzovnada yerləşən Tibbi Reabilitasiya Mərkəzində, Qazax, Şəmkir, Goranboy Rayon Mərkəzi Xəstəxanalarında təmir-tikinti işləri başa çatdırılıb, onlar tam təchiz olunub və açılışa hazırdır. Şəki, Gəncə Psixiatriya xəstəxanaları, 7 nömrəli Birləşmiş Şəhər Xəstəxanası, Professor Y.Gindes adına Respublika Uşaq və Yeniyetmələr üçün Vərəm Xəstəlikləri Sanatoriyasının tikintisi yekunlaşıb və növbəti ildə açılışları gözlənilir.

Hazırda Xırdalan şəhərində Abşeron Rayon Mərkəzi Xəstəxanasının, Qəbələ, Füzuli, Samux Rayon Mərkəzi Xəstəxanalarının, Bakı şəhər 11 nömrəli Birləşmiş Şəhər Xəstəxanasının, Bakı şəhəri Səbail rayonu Badamdar qəsəbə xəstəxanasının, Sumqayıt 2 nömrəli Şəhər Xəstəxanasının tikintisi, Bakı şəhər 2 nömrəli Doğum Evinin, Salyan Rayon Mərkəzi Xəstəxanasının Doğum şöbəsinin və Uşaq Xəstəxanasının əsaslı təmiri davam etdirilir.

Böyük diaqnostik imkanlara və kadr potensialına malik olan belə tibb ocaqlarının yaradılması həm paytaxtda, həm də bütün regionlarda əhaliyə yüksək keyfiyyətli və hərtərəfli tibbi xidmət göstərməyə münbit şərait yaradıb».

G.Poladov bildirdi ki, il ərzində 18 yaşdan yuxarı əhalinin 74%-i tibbi müayinələrdən keçirilib: «Müraciət edənlərin 279 min nəfərində müxtəlif növ ilkin xəstəliklər aşkarlanıb. Onlardan 21 min nəfər hospitalizasiya olunub, 56 minə yaxın şəxs dispanser nəzarətinə alınıb, 1 milyon 800 mindən çox insan əlavə müayinələrə cəlb olunub, 99 mindən çox insan sağlamlaşdırılaraq dispanser qeydiyyatdan çıxarılıb.

Ümumilikdə 2019-cu il ərzində Səhiyyə Nazirliyinin tabeliyində olan tibb müəssisələrinə 47 milyondan artıq müraciət olub, 712 min xəstə stasionar müalicəyə cəlb edilib. Cari ildə 8 minə yaxın insan reabilitasiya və sanator xidmətlərindən istifadə edib.

2019-cu ildə uşaqların 91 faizdən çoxu müayinələrə cəlb olunub. Tibbi müayinədən keçirilən uşaqların 4 faizi sağlamlıq vəziyyətinə görə dispanser qeydiyyata götürülüb, 0,9 faizi isə ixtisaslaşdırılmış tibb müəssisələrinə hospitalizasiya olunub».

Hesabat məruzəsində qeyd edildi ki, əvvəllər Azərbaycanda müalicəsi mümkün olmayan bir sıra ağır xəstəliklər maddi-texniki bazanın inkişaf etdirilməsi, kadrların ixtisas səviyyəsinin yüksəlməsi hesabına bu gün artıq ölkəmizdə müalicə olunur: «Belə ki, 2019-cu ildə dövlət hesabına 915 nəfərə kardiocərrahiyyə əməliyyatı icra edilib ki, onlardan 263-ü uşaqlardır. İl ərzində 2075 xəstəyə angioqrafiya müayinəsi aparılıb və onlardan 680 nəfərə angioplastika əməliyyatı olunub. Səhiyyə Nazirliyinin maliyyə dəstəyi ilə son illərdə 110 uşağa uğurla koxlear implantasiya əməliyyatı edilib. On il öncə cəmi 7 nəfərə endoprotezləşmə əməliyyatı aparıldığı halda, cari ildə bu əməliyyatların sayı 119-a bərabər olub.

Son illər Respublika Talassemiya Mərkəzində irsi qan xəstəliklərinin radikal müalicə üsulu olan sümük iliyinin transplantasiyası əməliyyatı uğurla həyata keçirilir. Ümumilikdə 89 sümük iliyi transplantasiyası aparılıb, onlardan 70 nəfər böyük beta-talassemiya, 13 nəfər kəskin leykoz, 6 nəfər aplastik anemiya xəstəsi olub.

Əhalinin donorluğa cəlb edilməsi işinin aktivləşdirilməsi nəticəsində tədarük olunan qan və onun komponentlərinin miqdarı ilbəil artırılır. Belə ki, 10 il öncə 19,5 ton qan tədarük edilmişdisə, 2019-cı il ərzində bu rəqəm 43 tondan artıq olub. Təkcə Aşura günü ərzində 5809 nəfər insandan qan götürülüb və 2614 litr qan tədarük edilib. Hazırda tibb müəssisələrinin və xəstələrin təhlükəsiz donor qanına və onun komponentlərinə olan ehtiyacı tam ödənilir.

Artıq Azərbaycanda talassemiyalı xəstə uşaqların doğulmasının qarşısının alınması istiqamətində də konkret addımlar atılır. Belə ki, il ərzində ailə qurmağa hazırlaşan 126 mindən çox insanın qan nümunəsi müayinə olunub. Onların arasında 3393 talassemiya daşıyıcısı, 135 insanın immun çatışmazlığı virusuna, 297 sifilis xəstəliyinə yoluxmuş şəxs aşkar edilib. Müayinə olunanlardan 55 cütlükdə hər iki şəxsin talassemiyalı olduğu müəyyənləşib. Bu cütlüklərdən hamilə qalmış qadınların hər birindən götürülmüş döl materialının müayinəsi aparılıb, nəticədə 19 sağlam, 31 daşıyıcı, 15 xəstə döl aşkarlanıb. Xəstəlik müəyyən edilən hallarda qadınlara hamiləliyin pozulması məsləhət görülüb.

Hazırda ölkəmizdə qeydiyyatda olan 1667 hemofiliyalı xəstəyə göstərilən tibbi xidmətin səviyyəsinin yüksəldilməsi, davamlı faktor preparatları ilə təmin olunması nəticəsində onların həyat keyfiyyətinin yaxşılaşmasına və bu xəstəlikdən yaranan əlilliyin və ölüm hallarının azaldılmasına nail olunub.

Qanın bədxassəli xəstəlikləri ilə xəstələnmənin və bu səbəbdən ölüm hallarının yüksək göstəriciləri, bu xəstəliklərə əsasən uşaqların və əmək qabiliyyətli yaşda insanların düçar olması, müayinə və müalicə xərclərinin çox baha olması bu insanlar üçün ağır yük idi. Hazırda 2700-dən çox belə xəstə dövlət hesabına dərman preparatları ilə təmin edilir. Əvvəllər mütləq ölümlə nəticələnən bu xəstəlikdən əziyyət çəkənlərin həyat keyfiyyəti yaxşılaşıb və bəzi hallarda sağalması mümkün olub».

Əhaliyə göstərilən tibbi xidmətlərin genişləndirilməsində və keyfiyyətinin artırılmasında səhiyyənin həm haqqında danışılan, həm də digər sahələri üzrə qəbul edilmiş dövlət proqramlarının xüsusi rolunu vurğulayan G.Poladov xatırlatdı ki, hazırda Azərbaycanda şəkərli diabet xəstəliyi üzrə üçüncü Dövlət Proqramı uğurla icra olunur: «Bu proqramların icra müddəti ərzində şəkərli diabetlə əlaqədar qeydiyyata götürülən xəstələrin sayı təxminən 2,5 dəfə artıb. Belə ki, 10 il öncə şəkərli diabet xəstələrinin sayı 108 min olubsa, 2019-cu ildə ölkədə 267 273 şəkərli diabet xəstəsi qeydiyyata alınıb, onlardan 1 717 nəfəri 18 yaşadək olan uşaqlardır. 22 611 nəfər ilk dəfə qeydiyyata götürülənlərdir ki, onlardan 1 617 nəfəri insulindən asılı olanlardır. Bu xəstələrin şəkərsalıcı dərman preparatları ilə təminatında mövcud olan gərginlik əsasən aradan qaldırılıb. Qeydiyyatda olan xəstələr 2019-cu il ərzində 160 117 ədəd qlükometr aparatı, 581 680 qutu striplə təmin edilib. Bütün uşaqlar insulin analoqları şpris-qələmlərlə və özünənəzarət vasitələri ilə təmin olunurlar.

«Ana və uşaqların sağlamlığının qorunması üzrə Dövlət Proqramı» çərçivəsində ana və uşaqlara xidmət göstərən tibb müəssisələrinin, xüsusən neonatoloji reanimasion şöbələrin maddi-texniki bazası mütəmadi olaraq gücləndirilir, dərman preparatları və tibbi texnika ilə təminatı yaxşılaşdırılır.

Son illər ölkə səhiyyəsi qarşısında duran ən çətin problemlərdən biri — xroniki böyrək çatışmazlığından əziyyət çəkən insanların hemodializ müalicəsi də artıq öz həllini tapıb. Hazırda Azərbaycanın şəhər və rayonlarında fəaliyyət göstərən 44 mərkəz 661 süni böyrək aparatı ilə təchiz olunub, 3900-dən artıq xəstə hemodializ seansları və müvafiq dərman vasitələri ilə tam həcmdə pulsuz təmin edilir. On il öncə isə cəmi 12 mərkəzdə 198 süni böyrək aparatı ilə 1200 xəstəyə xidmət göstərilirdi.

Qeyd etmək lazımdır ki, indi Azərbaycanda böyrək köçürülmüş 1000-ə yaxın insan var və dövlət onların dərman təminatını öz üzərinə götürüb. Cari ildə dövlət hesabına 34 nəfərə böyrək transplantasiyası əməliyyatı aparılıb.

«Dağınıq skleroz xəstəliyinin müalicəsi, profilaktikası və onunla mübarizə tədbirlərinə dair Dövlət Proqramı» Azərbaycanda ilk dəfə 2012-ci ildə qəbul edilib, 2013-2017-ci illəri əhatə edərək uğurla başa çatıb. 2018-ci ilin fevral ayında ölkə başçısının Sərəncamı ilə 2018-2022-ci illər üçün «Dağınıq skleroz xəstəliyinin müalicəsi, profilaktikası və onunla mübarizə tədbirlərinə dair Dövlət Proqramı» təsdiq edilib və hazırda icra olunur. Bu Dövlət Proqramı çərçivəsində 1135 xəstənin dövlət tibb müəssisələrində müayinə və müalicəsi aparılır. Bütün xəstələr maliyyə baxımından çox baha başa gələn yüksəkeffektli dərman preparatları ilə dövlət hesabına təmin olunurlar. Görülən tədbirlər bu xəstəlikdən əlilliyin və ölüm hallarının azalmasına şərait yaradıb.

Qonşu dövlətlərdə baş verən epidemioloji gərginliyə baxmayaraq, yoluxucu xəstəliklərlə mübarizə və profilaktika sahəsində aparılan kompleks profilaktik tədbirlər ölkəmizdə əldə olunan epidemioloji sabitliyi qoruyub saxlamağa imkan verir. Avropanın inkişaf etmiş ölkələrində olduğu kimi, Azərbaycanda da uşaqların 11 xəstəliyə qarşı immunlaşdırma tədbirləri ilə müdafiəsi təmin edilir. Ölkə üzrə peyvənd planı yenidoğulmuşların hepatit B vaksini ilə 98,8%, poliomielit əleyhinə vaksinlə 95,4%, vərəm əleyhinə vaksinlə 95,4%, pnevmokok əleyhinə vaksinlə 94,2%, qızılca-parotit-məxmərək əleyhinə vaksinlə 97,0% və göyöskürək-difteriya-tetanus əleyhinə vaksinlə 94,3% yerinə yetirilib.

*(Ardı səhifə 6-da)*

(Əvvəli 5-ci səhifədə)

# Səhiyyə Nazirliyində ilin

Bunun nəticəsində xüsusi profilaktika vasitələri ilə idarə olunan xəstəliklərin azaldılması üzrə stabil dinamika əldə edilib.

Poliomielit, difteriya, göyöskürək, epidemik parotit xəstəlikləri ölkədə artıq müşahidə edilmir, tetanus və məxmərək xəstəlikləri tək-tək hallarda baş verir.

Ölkədə həyata keçirilmiş genişmiqyaslı tibbi-profilaktika tədbirləri nəticəsində artıq 6 ildir ki, malyariyanın yerli yoluxması baş vermir. Bu nailiyyət Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa Regional Bürosu tərəfindən yüksək qiymətləndirilib və hazırda malyariyanın eliminasiyasının sertifikatlaşdırılması prosesinə başlanılıb.

Vərəmin diaqnostikasının yaxşılaşdırılması, dərmanlara davamlı xəstələrin aktiv müalicəyə cəlb olunması, geniş miqyaslı profilaktik tədbirlərin görülməsi nəticəsində bu sahədə də epidemioloji vəziyyətin stabilləşməsinə nail olunub. Belə ki, son 10 il ərzində qeydiyyatda olan vərəmli xəstələrin sayı hər 100 min nəfərə 121,4-dən 88,1-ə qədər azalıb, bu xəstəlikdən ölüm halları 8,4-dən 4,5-ə enib.

Aparılan məqsədyönlü tədbirlər nəticəsində Azərbaycan hazırda insanın immun çatışmazlığı virusuna yoluxma səviyyəsi aşağı olan ölkələr sırasındadır.

Son 5 il ərzində Səhiyyə Nazirliyinin nəzdində viruslu hepatitlərin diaqnostikası və müalicəsinin təşkili üzrə xüsusi komissiya fəaliyyət göstərir. Bu müddətdə komissiyaya 10 803 nəfər müraciət edib, onlardan 7315-nə dövlət hesabına uzunmüddətli müalicə kursu təyin edilib. 2019-cu ildə nazirlik tərəfindən birbaşa virus əleyhinə təsir göstərən yeni nəsil dərman preparatları alınıb».

Şöbə müdiri Azərbaycanda tibbi kadr hazırlığı sahəsində atılmış ciddi addımlardan da danışdı. Qeyd etdi ki, 2018-2019-cu tədris ilində rezidenturanı 30 ixtisas üzrə 302 həkim-mütəxəssis bitirib ki, onlardan 266 nəfər iş yerlərinə göndərilib: «2019-cu ildə həkimlərin mərkəzləşdirilmiş işə qəbulu nəticəsində 337 həkim işlə təmin edilib. Onlardan 176 nəfər bölgələrin şəhər, rayon və kəndlərinin səhiyyə müəssisələrinə vakant həkim vəzifələrinə işə qəbul olunub.

Cari tədris ilində 16 560 həkim və 8 964 orta tibb işçisi təkmilləşdirmə kurslarından keçib, 4 654 həkim və 7 697 orta tibb işçisi sertifikat alıb, eyni zamanda, 24 ixtisas üzrə 247 müdavim peşə hazırlığı kurslarında iştirak edib.

2019-cu ildə davamlı tibb təhsili üzrə akkreditasiya edilən tədbirlərin sayı 260-dək artıb.

İlkin səhiyyə sistemi səviyyəsində həkim və orta tibb işçilərinin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə «İlkin səhiyyə xidmətinin göstərilməsi Qaydaları» hazırlanıb. Bu qaydalarda ailə həkimi ixtisası üzrə kadr hazırlığına xüsusi diqqət yetirilib.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 mart 2010-cu il tarixli 50 nömrəli Qərarı ilə «Rezidenturada təhsilin məzmunu və təşkili Qaydaları»nın Əlavəsində bəzi ixtisaslarla yanaşı, «Ailə təbabəti» ixtisası da daxil edilib. Eləcə də, Azərbaycan Tibb Universiteti nəzdində yaradılmış səhiyyə menecmenti üzrə magistraturaya tələbə qəbulu üçün normativ sənədlər, o cümlədən tədris planı tərtib edilib».



Azərbaycan Respublikası Prezidentinin tapşırıq və tövsiyələrini rəhbər tutaraq səhiyyə naziri və nazir müavinləri tərəfindən bu il ölkənin 18 regionunda vətəndaşların qəbulunun təşkil olunduğunu söyləyən natiq qeyd etdi ki, hər bir vətəndaşın müraciəti dinlənilib və bir sıra hallarda yerindəcə həll edilib: «Hazırda «Vahid Səhiyyə İnformasiya Sistemi»nin tərkibində 20-dən çox elektron informasiya sistemi və alt sistemləri fəaliyyət göstərir. Cari ildə ölüm hallarının elektron qeydiyyatına başlanılıb, «Əmək qabiliyyətinin olmaması vərəqəsi»nin, «Ambulator tibbi kitabçadan və xəstəlik tarixindən çıxarış»ların vahid elektron reyestrlərinin yaradılması üçün müvafiq işlərə start verilib.

Əlamətdardır ki, indiyədək Səhiyyə Nazirliyi tərəfindən informasiya sistemlərinin tətbiqi sahəsində 40 elektron xidmət istifadəyə verilib. Mühüm məqamlardan biri də odur ki, bu vahid sistemin digər qurumların informasiya sistemlərinə və «Elektron Hökumət» portalına inteqrasiyası da təmin edilib».

Dövlət başçısının müvafiq Fərmanlarına uyğun olaraq, Mingəçevir şəhərində, Yevlax və Ağdaş rayonlarında həyata keçirilən icbari tibbi sığorta üzrə pilot layihələrinin başa çatmaq üzrə olduğunu söyləyən şöbə müdiri gələn ildən bütün ölkə ərazisində tibbi sığortanın mərhələli şəkildə tətbiqinə başlanılacağını dedi. Bildirdi ki, pilot layihələr çərçivəsində tibb müəssisələrinin yeni maliyyələşmə mexanizminin davamlı inkişafı təmin edilib, işçilərin əməkhaqlarının ödənilməsi mexanizmləri təkmilləşdirilib və pilot ərazilərdə adambaşına düşən səhiyyə xərclərinin məbləği müəyyən edilib: «Genişmiqyaslı, olduqca böyük zəhmət və iradə tələb edən bu işə hazırlıq məqsədilə Səhiyyə Nazirliyi tərəfindən səhiyyə qanunvericiliyinin təkmilləşdirilməsi, tibb müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, onların yeni, ən müasir tibb avadanlığı və cihazlarla təmin edilməsi, tibb kadrlarının peşəkarlıq səviyyəsinin artırılması istiqamətində mühüm tədbirlər həyata keçirilib».

Ölkə rəhbərliyinin möhkəm siyasi iradəsi və böyük dəstəyi ilə icbari tibbi sığortanın artıq reallığa çevrildiyini söyləyən G.Poladov vurğuladı ki, bu reallığı həyata keçirmək səhiyyə işçilərinin üzərinə düşür: «İşlədiyi yerdən və tutduğu vəzifədən asılı olmayaraq, bütün tibb işçiləri qarşıya qoyulan vəzifələri öz doğma işi hesab etməli, bilik və bacarığını əsirgəməməlidir. Biz hər zaman, hər an möhtərəm Prezidentimiz cənab İlham Əliyevin səhiyyəyə olan xüsusi diqqət və qayğısını hiss edirik. Bu da bizim məsuliyyətimizi artırır və gələcəkdə daha böyük nailiyyətlər əldə etmək üçün ruhlandırır. Dövlət başçısının səhiyyə siyasətini daim dəstəkləyən tibb işçiləri qarşıya qoyulan vəzifələri bundan sonra da əzmlə yerinə yetirəcəklər».

Səhiyyə naziri Oqtay Şirəliyev tibb təhsili sahəsində il ərzində görülmüş işlərlə bağlı məlumat vermək üçün sözü **Azərbaycan Tibb Universitetinin (ATU) rektoru professor Gəray Gəraybəyli**yə verdi.

Ölkəmizdə həyata keçirilən dövlət siyasətində səhiyyə və təhsil sisteminin təkmilləşdirilməsi və inkişafının prioritet yerlərdən birini tutduğunu qeyd edən rektor vurğuladı ki, 2020-ci ildə 90 illik yubileyi qeyd olunacaq, ölkəmizdə tibb təhsilinin əsas ocağı olan Azərbaycan Tibb Universiteti də dövlətimiz tərəfindən hərtərəfli qayğı ilə əhatə olunub və islahatlardan kənarda qala bilməzdi: «Tibb təhsilinin keyfiyyətinin yaxşılaşdırılması və tədris prosesinin təkmilləşdirilməsi, eləcə də təhsil proqramlarının dünyanın qabaqcıl universitetlərinin təhsil proqramlarına uyğunlaşdırılması məqsədi ilə ATU-da bir sıra islahatlar aparılıb. Belə ki, artıq ikinci ildir ki, tələbələrin biliklərinin qiymətləndirilməsində yeni imtahan sistemi tətbiq edilir, Buraxılış Dövlət İmtahanlarında məzunlarımızın bacarıqları yeni formada — Obyektiv Strukturlaşdırılmış Klinik İmtahan (OSKİ) formasında qəbul olunur. Keçən tədris ilindən etibarən, ilk dəfə olaraq, tələbələrin semestr ərzində, mərkəzləşdirilmiş şəkildə keçirilən aralıq qiymətləndirilməsi uğurla tətbiq edilir. Bununla da, tələbələrin qiymətləndirilməsinə subyektiv müdaxilələrin azalmasına və prosesin şəffaflaşdırılmasına nail olunub».

Professor Gəray Gəraybəyli həmçinin Azərbaycanda psixiatriya sahəsində görülmüş işlərdən də danışdı: «Səhiyyə Nazirliyinin dəstəyi ilə psixiatrik xəstəxanalarda aparılan təmir və tikinti işləri, onların təchizatının və dərman vasitələri ilə təminatının yaxşılaşması stasionar xəstələrin saxlanılma şəraitini və müalicəsinin keyfiyyətini xeyli dərəcədə yüksəldib. Əgər ötən illərdə xəstələrin stasionarda qalma müddəti orta hesabla 6 aydan çox idisə, başqa sözlə, bəzi xəstələr, demək olar ki, xəstəxanada daimi yaşayırdılarsa, hazırda orta hospitalizasiya müddəti 2,5 ayadək azalıb. Qeyd etmək istərdim ki, indi ölkəmizdə stasionarda uzunmüddətli, yəni 1 ildən yuxarı müalicə alan xəstələrin sayı ÜST-nin Avropa regionu üçün orta göstəricisindən hətta 15% aşağıdır. Keçən ildən psixiatriya ixtisası üzrə rezidentura müddəti 3 ilədək artırılıb ki, bu da yaxın perspektivdə həkim-psixiatrların hazırlanması keyfiyyətinin yüksəlməsinə yardım edəcək. Bu il ölkəmiz ÜST-nin psixiatriya müəssisələrində uzun müddət yardım alan şəxslərlə bağlı çox vacib beynəlxalq layihəsində də iştirak edib. Layihənin Azərbaycanda yerinə yetirilən hissəsi ÜST Avropa Regional Bürosu tərəfindən yüksək qiymətləndirilib. Uşaq və yeniyetmələrə psixo-sosial yardım sahəsində ABŞ-ın Çikaqo Universiteti ilə birgə yerinə yetirilən digər layihəmiz də yüksək qiymətə layiq görülüb. Bu ildən Almaniyanın Lüdviq - Maksimilian Universiteti ilə affektiv pozulmaların müalicəsinin genetik aspektlərinin tədqiqinə dair birgə layihəyə başlanılıb».

Kollegiya iclasında **Bakı şəhəri 1 nömrəli Vərəm Əleyhinə Dispanserin baş həkimi, Səhiyyə Nazirliyinin ftiziatriya üzrə baş mütəxəssisi, professor Yavər Şıxəliyev** Azərbaycanda vərəmlə bağlı vəziyyət barədə məlumat verdi. Vərəm xəstəliyinin bütün dünyada ictimai sağlamlığın ciddi problemlərindən biri olduğunu söyləyən baş ftiziatr vurğuladı ki, Səhiyyə Nazirliyi vərəmlə mübarizəyə qüvvə və ehtiyatları maksimal səfərbər etməklə, ölkə əhalisi arasında bu xəstəliyin qarşısının alınması istiqamətində geniş həcmli tədbirləri davam etdirir: «Beynəlxalq təşkilatlarla, o cümlədən ÜST, «QİÇS, vərəm və malyariya ilə mübarizə üzrə Qlobal Fond» və digərləri ilə səmərəli əməkdaşlıq nəticəsində, habelə Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən qəbul olunmuş Tədbirlər Proqramlarında nəzərdə tutulan tədbirlərin icrası sayəsində xəstəlik halları üzrə ilbəil nəzərəçarpan azalmaya nail olunub.

Vərəm xəstəliyinin əks-epidemik tədbirlərinin əsasını xəstəliyin erkən aşkarlanması və effektli müalicəsi təşkil edir. Bu baxımdan Azərbaycanda istifadəyə verilən və ən müasir şüa diaqnostikası aparatları ilə təchiz olunan diaqnostik mərkəzlər, yeni xəstəxanalar və ambulator-poliklinik tipli ilkin səhiyyə xidməti müəssisələri çox önəmli rol oynayır.

Son illərdə Şirvan Şəhər Mərkəzi Xəstəxanasının Vərəm şöbəsi, Bakı şəhər 2 və 3 nömrəli Vərəm Əleyhinə Dispanserləri, 6, 8, 9 nömrəli Xüsusiləşdirilmiş Vərəm Xəstəxanaları yenidən qurulub, Professor Y.Gindes adına Respublika Uşaq və Yeniyetmələr üçün Vərəm Xəstəlikləri Sanatoriyasında tikinti işləri yekunlaşıb. Vərəm xəstələrinin bakterioloji diaqnostikası üçün Naxçıvan, Quba, Zaqatala, Masallı, Gəncə, Xaçmaz, Lənkəran və digər şəhər və rayonlarda müasir avadanlıqlarla təmin olunmuş laboratoriyalar istifadəyə verilib. Vərəm xəstələrinin vahid elektron registrinin təkmilləşdirilməsi üçün lazım olan tədbirlər həyata keçirilir.

Vərəm xəstələrinin vaxtında aşkar edilməsi məqsədi ilə hər il risk qrupuna daxil olan 1 milyondan çox insan şüa diaqnostikası və immunodiaqnostikaya cəlb olunur. Yenidoğulanlar 97-100% halda spesifik vərəm əleyhinə BSJ vaksini ilə təmin edilirlər. Aparılan tədbirlər nəticəsində vərəm xəstələrinin erkən aşkarlanmasında və effektli müalicəsində müsbət dəyişiklər baş verib. Belə ki, 2019-cu ildə ötən illə müqayisədə

# yekun kollegiya iclası keçirilib

100 min nəfərə xəstələnmə göstəricisi 18% azalaraq 37,9 olub, xəstəlik isə 15,9% azalaraq 87,4 təşkil edib.

Azərbaycanda vərəm xəstələri arasında ölüm göstəricisi son 10 ildə eyni səviyyədə qalaraq, 100 min nəfərə 4,0-4,5 olub, bu da qonşu ölkələrin müvafiq göstəricisindən 3-4 dəfə aşağıdır.

Vərəmin bakterioloji təsdiq olunması 2019-cu ildə 16% artaraq 69,4% olub və ÜST-nin müəyyən etdiyi optimal səviyyəyə (≥70%) çatıb. Bu göstərici müalicənin effektliyinin əsasını təşkil edir, dərmanlara həssaslığın və davamlılığın təyinində mühüm əhəmiyyətə malikdir.

Vərəmin diaqnostikasında, o cümlədən çox dərmanlara davamlı (ÇDD) formaların aşkarlanmasında tətbiq olunan sürətləndirilmiş molekulyar-genetik müayinələrin sayı son iki ildə 85% artıb. Bu həm diaqnostik əhəmiyyət kəsb edir, həm də ÇDD xəstələrin vaxtında aşkarlanmasını təmin edir, xəstələrin müalicəsinin effektliyinə müsbət təsir göstərir. Nəticədə, bu il həm ilkin və həm də təkrari xəstələr arasında ÇDD 2016-cı illə müqayisədə müvafiq olaraq 7,7 və 7,1% aşağı düşüb.

Vərəmlə mübarizə sahəsində çalışan tibb işçilərinin ixtisas səviyyəsinin artırılmasına çox diqqət yetirilib, onlar üçün müxtəlif təlimlər təşkil olunub, mütəxəssislər xarici ölkələrdə konfrans və simpoziumlarda iştirak ediblər. Vərəmin aşkarlanması, diaqnostikası və müalicəsi üzrə bir neçə klinik protokol qəbul olunub, metodik təlimatlar hazırlanıb».

Professor Y.Şıxəliyev onu da vurğuladı ki, görülən işlərlə yanaşı, vərəm xəstəliyi ilə mübarizə tədbirlərinin daha da təkmilləşdirilməsinə ehtiyac var, ölkənin sosial yönümlü siyasəti və beynəlxalq qurumlarla əməkdaşlıq sayəsində bu problem uğurla həll olunacaq.

«Azərbaycan Respublikasında uşaqların sağlamlığının qorunması dövlətimizin və Səhiyyə Nazirliyinin daim diqqət mərkəzindədir. 2006-cı ildən indiyə kimi əldə olunan uğurlu nəticələr bu il də səhiyyənin prioriteti kimi davam edib». Bunu öz çıxışında **Bakı şəhəri 6 nömrəli Uşaq Klinik Xəstəxanasının baş həkimi Naibə Məmmədova** bildirdi. Səhiyyə Nazirliyi tərəfindən 2017-ci ilin oktyabr ayında «Azərbaycan Respublikasında uşaq ölümlərinin azaldılmasına yönəldilmiş əlavə tədbirlər barədə» əmr verildiyini və tədbirlər planının təsdiq olunduğunu xatırladan natiq bu istiqamətdə görülən işlərdən danışdı. O qeyd etdi ki, əsasən allerqoloji və endokrinoloji problemli uşaqlara xidmət edən klinikaya bu ilin 11 ayı ərzində keçən illə müqayisədə 20 faizdən çox xəstə daxil olub. Letallıq göstəricisi isə 2 dəfə azalaraq 0,1% təşkil edib: Daxil olan xəstələrin 60%-i allerqoloji problemli uşaqlardır, onların 16%-i bronxial astmalı xəstələrdir. Ölkədə yeganə olan uşaq allerqoloji şöbəsi Poliklinika şöbəsi ilə birlikdə «Şəhər Allerqoloji Mərkəzi» statusuna malikdir, paytaxtın bütün rayonlarından bronxial astmalı xəstələr burada dispanser nəzarətdə saxlanırlar.

Klinikaya daxil olan xəstələrin 19%-ni endokrin patologiyalar, o cümlədən 14%-ni şəkərli diabet xəstəliyi təşkil edib. Müvafiq dövlət proqramına əsasən, ölkəmizdə I tip şəkərli diabet diaqnozu ilə qeydiyyatda olan bütün xəstələr Səhiyyə Nazirliyi tərəfindən ən müasir insulin analoqları və qlükometrlərlə təmin olunurlar. Stasionarda müalicə zamanı xəstələrə fərdi olaraq «Diabet məktəbi»ndə təlim kursu keçilir».

Baş həkim həmçinin bildirdi ki, Azərbaycan Respublikası Prezidentinin 10 may 2018-ci il tarixli Sərəncamının icrası ilə bağlı «Uşaqlıq dövrünə xas olan əlilliyin erkən profilaktikası və müalicəsi üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planı»na uyğun olaraq, İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən 6 saylı Uşaq Klinik Xəstəxanasının endokrinoloqlarının iştirakı ilə «Boy hormonu çatışmazlığının diaqnostika və müalicəsi üzrə metodik təlimat» layihəsi hazırlanıb. Gələn ildən belə hormon çatışmazlığı diaqnostik təsdiqlənmiş uşaqların həmin təlimata əsasən müalicəsinə başlanacaq.

Klinikada çalışan allerqoloqlar, endokrinoloqlar, pediatrlar və genetik mütəmadi olaraq Türkiyədə, Rusiyada, digər Avropa ölkələrində ixtisas artırma kursları keçirlər.

N.Məmmədova xüsusi qeyd etdi ki, bu il xəstəxanaya ayrılan yeni tibbi avadanlıqlar, xüsusən Reanimasiya və intensiv terapiya şöbəsinin ən müasir süni ventilyasiya cihazı, monitorlar, qan qazı analizatoru və digər avadanlıqlarla təchiz olunması ağır xəstələrin (diabetik koma, astmatik status və s.) tez bir zamanda kritik vəziyyətdən çıxarılmasına müsbət təsir göstərib: «Ölüm hallarının azalmasını məhz bununla əlaqələndirmək olar. Bronxial astmalı xəstələrdə xarici tənəffüs funksiyasının öyrənilməsi üçün əldə etdiyimiz spirometr cihazı əvəzsizdir. Bütün bu yeniliklər müayinə və müalicənin keyfiyyətinin yüksəlməsinə, göstəricilərin yaxşılaşmasına, klinikaya inamın artmasına, müraciətlərin çoxalmasına səbəb olub».

Kollegiya iclasında iştirak edən **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev** çıxış edərək, ölkə səhiyyəsinin böyük islahatlar qarşısında olduğunu söylədi. Pilot layihə çərçivəsində ölkənin üç bölgəsində icbari tibbi sığortanın tətbiqindən danışan natiq bu təcrübənin icbari tibbi sığortanın mərhələli şəkildə bütün ölkə ərazisində tətbiqi zamanı faydalı olacağını vurğuladı: «Sığorta sisteminin gələn il ərzində mərhələli şəkildə bütün ölkə ərazisində tətbiqi Azərbaycanda səhiyyə sahəsində atılan növbəti uğurlu addımdır. İnanırıq ki, yeni səhiyyə sisteminə keçid Səhiyyə Nazirliyi ilə qarşılıqlı əməkdaşlıq şəraitində uğurla həyata keçiriləcək».



Sonra ənənəvi olaraq **Səhiyyə naziri Oqtay Şirəliyev** ilin yekunlarına dair çıxış etdi.

2019-cu ilin Azərbaycan üçün hər sahədə uğurlu il olduğunu söyləyən Səhiyyə naziri vurğuladı ki, əsası dahi şəxsiyyət, ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş sosial yönümlü siyasət Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında uğurla həyata keçirilir: «Əhalinin sağlamlığının qorunması, digər sahələr kimi, daim dövlət rəhbərinin diqqət mərkəzindədir. Ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva da səhiyyəmizin inkişafını daim diqqətdə saxlayır, əhalinin, xüsusilə də yeni nəslin sağlamlığı ilə bağlı mühüm tədbirlər həyata keçirir.

Son illərdə olduğu kimi, bu il də səhiyyənin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində geniş miqyaslı işlər aparılıb. Bu gün biz artıq əminliklə deyə bilərik ki, ölkənin hər bir bölgəsində müasir tibb müəssisələri şəbəkəsi yaradılıb».

Hər bir vətəndaşın öz yaşadığı yerdə tam həcmdə tibbi xidmət ala bilmək imkanının ölkə rəhbəri tərəfindən qarşıya vəzifə kimi qoyulmasını xatırladan Səhiyyə naziri Oqtay Şirəliyev bunun artıq reallıq olduğunu söylədi: «Vaxtilə adi rentgen müayinəsi üçün xəstəni rayondan Bakıya gətirirdilər. İndi rayon xəstəxanalarında kompüter tomoqrafları, müasir əməliyyatxanalar var, orada ən mürəkkəb əməliyyatlar aparmaq olur.

Bir neçə rəqəm gətirmək istərdim. Hər il 700 mindən artıq xəstə xəstəxanalarda müalicə olunur. Bunların yarısından çoxu məhz regionların, rayon xəstəxanalarının payına düşür. Hər il ambulator-poliklinik xidmətə 47 milyondan artıq müraciət olur, onların 30 milyonu məhz rayon poliklinikalarınadır. Bu rəqəmlər göstərir ki, yeni tikilən tibb müəssisələrinə həqiqətən əhalinin çox böyük ehtiyacı var idi.

Ölkə səhiyyəsindən danışarkən hər dəfə dövlət proqramlarını xüsusi qeyd edirik. Bu proqramlar ömür boyu müalicə tələb edən bir sıra xroniki xəstəlikləri əhatə edir. Qeyri-adi səslənsə də, bu proqramların ən müsbət nəticəsi belə xəstələrin sayının artmasıdır. Çünki məhz proqramların sayəsində bu xəstəliklərdən ölüm göstəricisi azalır, xəstələrin ömrü uzanır. Bu həm şəkər xəstəliyinə, həm xroniki böyrək çatışmazlığına, dağınıq skleroz, talassemiya, vərəm və proqramlarla əhatə olunan digər xəstəliklərə aiddir».

Əhalinin sağlamlığının qorunmasında profilaktika tədbirlərinin də çox böyük əhəmiyyət daşıdığını qeyd edən nazir bildirdi ki, uşaqların icbari dispanserizasiyası üzrə dövlət proqramı çərçivəsində hər il onların 90 faizdən çoxu müayinələrdən keçirilir: «Bu il onların 4 faizə yaxını dispanser qeydiyyatına götürülüb, 3,3 faizi sağalaraq qeydiyyatdan çıxarılıb. Bu isə o deməkdir ki, xəstəliklər vaxtında aşkarlanır, gələcəkdə fəsadların, ağırlaşmaların qarşısı alınır».

Son illərdə səhiyyənin kadr potensialının gücləndirilməsinə böyük diqqət verildiyini vurğulayan Səhiyyə naziri dedi ki, tibb təhsilində aparılan islahatlar, Avropanın qabaqcıl klinikalarında təcrübə keçmək imkanı və digər tədbirlər nəticəsində hazırda ölkədə ən müasir müalicə üsulları tətbiq olunur: «Kardiocərrahi əməliyyatlar, orqan transplantasiyası — qaraciyər, böyrək, ilik köçürülməsi, koxlear implant və süni oynaq əməliyyatları — bütün bunlar yerli klinikalarda bizim həkimlər tərəfindən uğurla həyata keçirilir.

Yeri gəlmişkən, səhiyyəmizin inkişafını həm beynəlxalq qurumlar, Ümumdünya Səhiyyə Təşkilatı, həm də sıravi xarici vətəndaşlar qeyd edirlər. Azərbaycana gələn turistlər, beynəlxalq tədbirlərin iştirakçıları ölkəmizdə tibb xidmətinə müraciət etməli olanda daim müalicənin, tibbi xidmətin səviyyəsindən öz razılıqlarını bildirirlər».

2019-cu ili ölkəmizdə islahatlar ili adlandıran Oqtay Şirəliyev digər sahələrdə olduğu kimi, Azərbaycan səhiyyəsində də davamlı inkişaf getməsindən, ardıcıl islahatlar aparılmasından söz açdı: «Burada icbari tibbi sığortanı xüsusi vurğulamaq lazımdır. Bu sahədə artıq pilot regionlarda layihələr icra edilir. Səhiyyənin hazırkı maddi-texniki bazası, kadr potensialı və agentliyin pilot regionlarda əldə etdiyi müsbət nəticə onu deməyə əsas verir ki, yeni maliyyələşmə modelinin bütün ölkədə mərhələli şəkildə tətbiqinə hər cür şərait var. Əminəm ki, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi Səhiyyə Nazirliyi ilə əməkdaşlıq şəraitində bu istiqamətdə uğurla çalışacaq, ölkə başçısının tapşırıqlarını yerinə yetirəcək».

Çıxışının sonunda nazir tibb işçilərinə müraciətlə dedi: «İnsanın sağlamlığı onun həyatının, rifahının vacib bir göstəricisidir. Səhiyyə elə sahədir ki, cəmiyyətin hər üzvü gündəlik həyatında onunla qarşılaşır, dövlətin ona qayğısını məhz səhiyyənin timsalında qiymətləndirir. Buna görə də tibb işçilərinin üzərinə çox böyük məsuliyyət düşür. Əminəm ki, Azərbaycanın səhiyyə ictimaiyyəti, bütün tibb işçiləri bundan sonra da fəaliyyətlərini yüksək səviyyədə davam etdirəcək, dövlət başçısının tapşırıq və göstərişlərini əzmlə yerinə yetirəcək, onun sosial yönümlü siyasətini həyata keçirmək üçün var qüvvə ilə çalışacaqlar. Sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə ürəkdən təbrik eləyirəm. 2019-cu ildə fədakar əməyinizə görə sizə təşəkkürümü bildirirəm. Qarşıdan gələn 2020-ci ildə sizə, ailələrinizə, əməkdaşlarınıza, ölkəmizin hər bir tibb işçisinə sağlamlıq, xoşbəxtlik, uğurlar arzulayıram».

Kollegiya iclasının yekununda Səhiyyə naziri Oqtay Şirəliyevin əmrinə əsasən səhiyyə və tibb elmi sahəsində xüsusi xidmətlərinə görə fərqlənmiş bir sıra tibb işçisinə «Səhiyyə əlaçısı» döş nişanı və Səhiyyə Nazirliyinin «Fəxri Fərman»ı təqdim edildi.

# Tibb işçilərinin Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin «Səhiyyə əlaçısı» döş nişanı ilə təltif edilməsi haqqında

## *Səhiyyə nazirinin əmri*

Əməkdə xüsusi xidmət və nailiyyətlərinə görə fərqlənən səhiyyə işçilərinin təltif edilməsi məqsədilə Azərbaycan Respublikası Səhiyyə Nazirliyi haqqında Əsasnamənin 14.4-cü bəndini rəhbər tutaraq **əmr edirəm:**

Aşağıda adları çəkilən tibb işçiləri «Səhiyyə əlaçısı» döş nişanı ilə təltif edilsinlər:

**1.** Axundova Mətanət Taryel qızı — «Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi» publik hüquqi şəxsin (PHŞ) Məhkəmə kimya şöbəsinin müdiri

**2.** Ağayev Rauf Qəzənfər oğlu — Bakı şəhəri Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının böyük həkimi

**3.** Bilalova Cahan Nizami qızı — «Analitik Ekspertiza Mərkəzi» PHŞ-in mütəxəssisi

**4.** Cəfərquliyev Rauf Mirağa oğlu - «Kliniki Tibbi Mərkəz» PHŞ-in həkim-anestezioloq-reanimatoloqu

**5.** Əli-zadə Ləman İsmayıl qızı — Səhiyyə Nazirliyi Ümumi şöbənin müdiri

**6.** Əkbərov Rasim Şahbaz oğlu — «Yardımlı Rayon Mərkəzi Xəstəxanası» PHŞ-nin baş direktoru

**7.** Əfəndiyeva Tahirə Məmməd qızı — Bakı şəhəri 20 nömrəli Şəhər Poliklinikasının baş həkiminin müavini

**8.** Hacıyeva Esmira Nadir qızı — Bakı Şəhər Baş Səhiyyə İdarəsinin məsləhətçisi

**9.** Qorçiyev Bayram Mahmud oğlu — «Ortoped» MMC-nin (City hospital) həkim-travmatoloq-ortopedi

**10.** Marinçenko Yelena Viktorovna — Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun baş müəllimi

**11.** Məhərrəmova Firəngiz Əmirxan qızı — Medera Hospitalın baş həkimi

**12.** Mürsəlova Nəzifə Aydın qızı — Səhiyyə Nazirliyi Sanitariya-epidemioloji nəzarət sektorunun aparıcı məsləhətçisi

**13.** Məmmədova Ceyran Bəxtiyar qızı — Bakı şəhəri 1 nömrəli Uşaq Poliklinikasının baş həkimi

**14.** Pauker Aleksandr Vladimiroviç — Elmi Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunun həkim-travmatoloq-ortopedi

**15.** Seyidəliyeva Leyla Fərhad qızı — Səhiyyə Nazirliyi Tibbi yardımın təşkili şöbəsinin aparıcı məsləhətçisi

**16.** Şükürova Ramella Fərman qızı — Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin laboratoriya müdiri

**17.** Şirinova Pəri Abbas qızı — Səhiyyə Nazirliyi Kadrlar, elm və təhsil şöbəsinin aparıcı məsləhətçisi

**18.** Teymurov Ramis Rəsul oğlu — Bakı şəhəri Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının böyük həkimi

**19.** Zülfüqarov Vaqif Paşa oğlu — Tikilməkdə olan Müəssisələrin Müdiriyyətinin direktor müavini

**Səhiyyə naziri**
**Oqtay ŞİRƏLİYEV**

# Səhiyyə işçilərinin təltif edilməsi haqqında

## *Səhiyyə nazirinin əmri*

Əhalinin sağlamlığının qorunması sahəsində qüsursuz və səhiyyə sistemində səmərəli fəaliyyətinə görə aşağıda adları çəkilən səhiyyə işçiləri Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin «Fəxri Fərman»ı ilə **təltif edilsinlər:**

**1.** Bəylərov Allahverdi Keşdasif oğlu — Salyan Rayonlararası Psixiatriya Xəstəxanasının baş həkimi

**2.** Cəlilov Etibar Yəmli oğlu — «Astara Rayon Mərkəzi Xəstəxanası» publik hüquqi şəxsin (PHŞ) Cərrahiyyə şöbəsinin müdiri

**3.** Daşdəmirova Nailə Murad qızı — «Analitik Ekspertiza Mərkəzi» PHŞ-in həkim-metodisti

**4.** Əhmədova Nərgiz Oktay qızı — Gəncə şəhəri Abbas Səhhət adına 1 nömrəli Şəhər Xəstəxanasının həkim-mama-ginekoloqu

**5.** Hüseynov Əfrahim İsmayıl oğlu — «Cəlilabad Rayon Mərkəzi Xəstəxanası» PHŞ-nin Alar həkim məntəqəsinin müdiri

**6.** Qarayeva Lalə Veysəl qızı — Quba Regional Perinatal Mərkəzin Doğum şöbəsinin müdiri

**7.** Məmmədova Gülnarə Nurməmməd qızı — «Şəki Rayon Mərkəzi Xəstəxanası» PHŞ-nin Oftalmologiya şöbəsinin müdiri

**8.** Məmmədova Gülnarə Nadir qızı — Bakı şəhəri 15 nömrəli Uşaq Poliklinikasının sahə həkim-pediatrı

**9.** Nəcəfquliyeva Sevil Əli qızı — Bakı şəhəri 16 nömrəli Şəhər Poliklinikasının sahə həkim-terapevti

**10.** Nemətova Rəna Kərim qızı — «Kliniki Tibbi Mərkəz» PHŞ-in həkim-kardioloqu

**11.** Rəsulov Məmməd Qurban oğlu — «Analitik Ekspertiza Mərkəzi» PHŞ-nin şöbə müdirinin müavini

**12.** Umarova Lola Şəmsəddinovna — Bakı şəhəri 5 nömrəli Şəhər Poliklinikasının baş tibb bacısı

**13.** Yaqubova Gülnarə Mikayıl qızı - Səhiyyə Nazirliyi Maliyyə-iqtisadiyyat şöbəsinin aparıcı məsləhətçisi

**14.** Qafarova Sevda Şahin qızı — Bakı Şəhəri Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının böyük həkimi

**15.** Qədirova Nigar Ədalət qızı — Bakı Şəhəri Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının böyük həkimi

**Səhiyyə naziri**
**Oqtay ŞİRƏLİYEV**

# Kəngərli rayonunda yeni həkim ambulatoriyası istifadəyə verilib



**Ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda gedən davamlı sosial inkişaf Naxçıvan Muxtar Respublikasında da özünü göstərir. Naxçıvanın şəhər və kəndlərində sosial obyektlər, o cümlədən tibb müəssisələri tikilir. Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ərəfəsində belə səhiyyə ocaqlarından biri — Kəngərli rayonunun Böyükdüz kəndində həkim ambulatoriyası istifadəyə verilib.**

Açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsib, ambulatoriyada tibbi xidmətin təşkili ilə maraqlanıb.

Bildirilib ki, lazımi avadanlıqlarla təchiz edilmiş ambulatoriyada 9 xidməti otaq, o cümlədən stomatoloq, doğuş, manipulyasiya, peyvənd, fizioterapiya kabinetləri, qeydiyyat otağı və aptek vardır. Kabinetlər müvafiq qurğular, aparatlar, tibbi avadanlıqlarla təmin olunub. Fizioterapiya kabinəsi isə elektroterapiya və ultrasəslə müalicə aparatı, ultrayüksək tezlikli cərəyanla müalicə aparatı, parafinəritmə qazanı və solyuks lampası ilə təchiz edilib. Qeydiyyat otağında icbari tibbi sığortanın tətbiqi üçün şərait yaradılıb.

Tibb işçisi Gözəl Babayeva əhalinin sağlamlığının qorunması sahəsində görülən işlərə görə minnətdarlıq edib.

Ali Məclisin Sədri həkim ambulatoriyasında səhiyyə işinin düzgün təşkili və icbari tibbi sığortanın tətbiqi ilə bağlı tapşırıqlar verib.

# Azərbaycan və Qazaxıstan səhiyyə qurumları memorandum imzaladılar



Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzində (İSİM) Qazaxıstan Respublikasının nümayəndələrinin iştirakı ilə «Azərbaycanda tibb müəssisələrinin akkreditasiyası» mövzusunda dəyirmi masa keçirilib. Səhiyyə Nazirliyinin, Kliniki Tibbi Mərkəzin, Respublika Müalicə və Diaqnostika Mərkəzinin, Azərbaycan Tibb Universitetinin Tədris-Terapevtik və Tədris-Cərrahiyyə klinikalarının və digər tibb müəssisələrinin nümayəndələri dəyirmi masada iştirak ediblər.

Tədbirin təşkilində əsas məqsəd Azərbaycanda akkreditasiya meyarlarına keçidlə bağlı mövcud vəziyyəti və atılan addımları müzakirə etmək, Qazaxıstanda bu istiqamətdə aparılan işləri və əldə edilən təcrübəni öyrənmək olub.

Dəyirmi masada çıxış edən İSİM-in direktoru Qəhrəman Haqverdiyev Azərbaycanda tibb müəssisələrinin akkreditasiyası, standartları və tətbiqi ilə bağlı iştirakçılara geniş məlumat verib. O qeyd edib ki, akkreditasiyaya keçid səhiyyə xidmətlərinin qiymətləndirilməsinə imkan verir: «Tibb müəssisələrinin müəyyən edilmiş standartlara və ya meyarlara uyğun olması əhaliyə keyfiyyətli tibbi xidmətin göstərilməsinə şərait yaradır».

Qazaxıstan Respublikasının Səhiyyədə Keyfiyyət Akkreditasiya Mərkəzinin sədri Botagoz Kaupbayeva və Akkreditasiyanın təkmilləşdirilməsi şöbəsinin müdiri Daniyar Ospanov ölkələrində akkreditasiya konsepsiyası, metodologiyası və faydaları haqqında geniş təqdimatla çıxış ediblər.

Yekunda Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi ilə Qazaxıstan Respublikasının Səhiyyədə Keyfiyyət Akkreditasiya Mərkəzi arasında qarşılıqlı əməkdaşlığa dair memorandum imzalanıb.

# Azərbaycanla Özbəkistan əczaçılıq sahəsində əməkdaşlıq edəcək



**Özbəkistan Respublikası Səhiyyə Nazirliyi yanında Əczaçılıq Sənayesinin İnkişafı Agentliyinin Elm və təhsil şöbəsinin müdiri Əziz Dusmatov ölkəmizdə səfərdə olub, burada Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzinin direktoru Murad Süleymanovla görüşüb.**

Aktual məsələlərin müzakirə edildiyi, əhəmiyyətli mövzular üzrə fikir mübadiləsinin aparıldığı görüş zamanı iki qurum arasında qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında Memorandum da imzalanıb.

Bu sənədin qəbul olunması iki ölkə arasında əməkdaşlığın daha da genişlənməsinə və inkişaf etdirilməsinə zəmin yaradacaq, digər sahələrdə olduğu kimi, əczaçılıq sahəsində də ikitərəfli əlaqələrə öz töhfəsini verəcək.

# «Qeyri-infeksion xəstəliklərin yükü və onlarla mübarizə strategiyaları»

## *Bakıda bu mövzuda II Milli Konfrans keçirilib*

**Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, İctimai Səhiyyə və İslahatlar Mərkəzinin (İSİM) təşkilatçılığı və Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) dəstəyi ilə Bakıda «Qeyri-infeksion xəstəliklərin (QİX) yükü və onlarla mübarizə strategiyaları» mövzusunda II Milli Konfrans keçirilib.**

AZƏRTAC-ın verdiyi məlumata görə, tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 23 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında qeyri-infeksion xəstəliklərlə mübarizəyə dair 2015-2020-ci illər üçün Strategiya»nın icrası ilə bağlı görülən işlər, həmçinin son iki il ərzində bu xəstəliklərlə mübarizədə əldə olunmuş nəticələr, bu sahədə olan çətinliklər və qarşıda duran problemlərin aradan qaldırılması məsələləri, STEPS sorğusunun nəticələri geniş müzakirə edilib.

II Milli Konfransı giriş sözü ilə açan **Səhiyyə nazirinin müavini Rahim Əliyev** bildirib ki, həm bütün dünya miqyasında, həm də ayrı-ayrı ölkələr səviyyəsində QİX ilə mübarizə səhiyyə sistemlərinin və ümumiyyətlə, dövlətin prioritet vəzifələrindən birinə çevrilib: «Qeyri-infeksion xəstəliklər insanlara verdikləri iztirablara, eləcə də sosial-iqtisadi baxımdan ölkələrin həyatına mənfi təsirinə görə səhiyyə və inkişaf sahələrində XXI əsrin mühüm problemlərindəndir. Müasir dövrdə sürətli urbanizasiya və qeyri-sağlam həyat tərzinin qloballaşması amilləri QİX yükünün artmasına təsir edib. Bugünkü konfransın əsas məqsədi bu istiqamətdə görülən işləri bir daha nəzərdən keçirmək, daha yaxşı nəticələr əldə etmək üçün səy göstərməkdir».




**İSİM-in direktoru Qəhrəman Haqverdiyev** qeyri-infeksion xəstəliklərin tütünçəkmə, artıq çəki və qeyri-sağlam qidalanma kimi risk faktorları ilə bağlı olduğunu vurğulayıb: «ÜST-nin dəstəyi ilə Azərbaycanda qeyri-infeksion xəstəliklərin öyrənilməsi üzrə keçirilən STEPS sorğusunun nəticələri bir daha göstərdi ki, insanların sağlam həyat tərzi vərdişlərinə yiyələnməsi vacib məsələdir. Məsələn, əgər 2011-ci ildə iştirakçıların yalnız 15 faizi gündə 400 qram meyvə və tərəvəz qəbul etdiyini bildirirdisə, 2017-ci ildə bu rəqəm artıq 25 faiz idi. Deməli, maarifləndirmə və sağlam həyat tərzi istiqamətində aparılan təbliğat insanların adət etdiyi qidalanma vərdişlərinin dəyişməsinə təkan verir».

Qeyd edək ki, ÜST-nin dəstəyi ilə İSİM tərəfindən həyata keçirilən STEPS sorğusu ölkələrə QİX-lərə nəzarət və onlarla mübarizə üçün öz nəzarət sistemlərini inkişaf etdirməyə kömək edən araşdırma metodudur. Azərbaycanda ilk dəfə 2011-ci ildə aparılmış və artıq ikinci dəfə həyata keçirilmiş bu milli sorğunun məqsədi əhali arasında qeyri-infeksion xəstəliklərin yayılmasını, mövcud vəziyyəti və gələcək meyilləri qiymətləndirmək, ÜST-nin təsdiq etdiyi metodlarla bu sahədə yeni məlumatlar əldə etməkdir.

**ÜST-nin Azərbaycandakı nümayəndəsi Hande Harmancı** konfransdakı çıxışında yalnız əl-ələ verərək bu sahədə uğur qazanmağın mümkün olduğunu qeyd edib, həkimlər və tibb mütəxəssisləri ilə yanaşı, digər sahələrin, qurumların nümayəndələrinin də bu tədbirdə iştirakını yüksək qiymətləndirib: «Qeyri-infeksion xəstəliklərin qarşısını almaq və onları nəzarətdə saxlamaq üçün Səhiyyə, Təhsil, Gənclər və İdman nazirlikləri, kütləvi informasiya vasitələri, yerli qeyri-hökumət təşkilatları və digər tərəfdaşların birgə əməkdaşlığa cəlb etməklə, hərtərəfli yanaşma lazımdır. Azərbaycanda qeyri-infeksion xəstəliklərin üstünlük təşkil edən risk faktorlarına qarşı səmərəli mübarizə üçün dünyada mövcud olan QİX siyasətləri və strategiyaları qəbul edilməli və yerli standartlara uyğunlaşdırılmalıdır. Belə uyğunlaşdırma aparılarkən, sağlam qidalanmaya, fiziki hərəkətliliyə, tütündən istifadənin, hipertoniyanın və diabetin qarşısının alınmasına və nəzarətdə saxlanmasına xüsusi diqqət yetirilməlidir».

**ÜST-nin Avropa Regional Bürosunda (ARB) Qeyri-infeksion xəstəliklər və sağlamlığın həyat boyu təbliği bölməsinin direktoru Bente Mikkelsen** videotəqdimatla çıxış edərək, tibbi xidmətin keyfiyyətinin artırılmasının və bu sahədə informasiya imkanlarının genişləndirilməsinin əhəmiyyətini diqqətə çatdırıb.

ÜST ARB-nin Qeyri-infeksion xəstəliklərin qarşısının alınması və onlara nəzarət proqramının meneceri İvo Rakovac, həmin qurumda qidalanma, fiziki aktivlik və piylənmə məsələləri üzrə proqram rəhbəri Joao Breda Azərbaycanda STEPS sorğusunun müqayisəli təhlili və QİX-in qarşısının alınması üzrə əldə olunan nəticələr barədə çıxış ediblər.

Qeyri-infeksion xəstəliklərin profilaktikasına həsr olunmuş konfransın ikinci — elmi-praktik hissəsində Azərbaycan Tibb Universiteti, Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu, İSİM, Milli Onkologiya Mərkəzi, Respublika Endokrinoloji Mərkəzi və digər aparıcı institutların, mərkəzlərin nümayəndələrinin məruzələri, çıxışları dinlənilib. Şəkərli diabet, ürək-damar, onkoloji və ağciyər xəstəliklərinin profilaktikasına dair məsələlərə xüsusi yer ayrılan bu hissədə onların fiziki aktivliyin olmaması, artıq çəki və piylənmə, duzun həddən artıq istifadəsi, spirtli içkilərdən sui-istifadə və sair kimi risk amilləri haqqında danışılıb, bu faktorların aradan qaldırılması, ümumiyyətlə, qeyri-infeksion xəstəliklərin iqtisadi yükünün azaldılması üçün aparılan tədqiqat və araşdırmaların nəticələri geniş müzakirə edilib.

Konfransda həmçinin fiziki passivliklə mübarizə istiqamətində görülən işləri dəstəkləmək məqsədilə fiziki aktivlik dəqiqələrinə vaxt ayrılıb və sağlam həyat tərzi vərdişlərinin əhali arasında geniş təbliğ və təşviq olunması istiqamətində birgə əməkdaşlığın vacibliyi vurğulanıb.

II Milli Konfrans çərçivəsində QİX-lərin profilaktikası və tütünçəkmə ilə mübarizə sahəsində maarifləndirmə işinin gücləndirilməsi məqsədilə «Tütünsüz həyat — sən özün yarat!» şüarı altında təşviqat aksiyası da keçirilib.

# Bu il Bakıda təcili yardım xidmətinə 727 minə yaxın müraciət olub

**2019-cu il ərzində Bakı şəhəri Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasına (BTTTYS) 726 693 ümumi müraciət daxil olub. Çağırışlarda 66 600-dən çox insan xəstəxanalara yerləşdirilib. Müraciətlərin 80 minə yaxını uşaqlar üçün edilib. Onlardan 13 200-ə yaxını stasionar müalicəyə cəlb olunub. Pediatrik çağırışlar əsasən BTTTYS-nin bölmələrində fəaliyyət göstərən pediatrik briqadalar tərəfindən icra edilib.**

Bu barədə BTTTYS-dən verilən məlumatda o da bildirilib ki, il ərzində 3600 nəfərdən artıq insan reanimasiya tədbirlərinin görülməsi sayəsində çox ağır vəziyyətlərdən çıxarılaraq, həyatı xilas edilib. Müraciətlərin 78 540-ı ürək-damar xəstəlikləri ilə bağlı olub, onlardan 13 300-ü hospitalizasiya edilib. O cümlədən miokard infarktı ilə 870 çağırış, 814 hospitalizasiya, insultla 3 600 müraciət, 3 200 hospitalizasiya edilib.

Sinir sistemi xəstəlikləri ilə əlaqədar müraciətlərin sayı artdığına görə belə xəstələrə göstərilən tibbi yardımın keyfiyyətini yüksəltmək məqsədilə nevrologiya üzrə ixtisasartırma kurslarında dəfələrlə iştirak etmiş həkimlərdən ibarət xüsusiləşmiş briqadalar təşkil olunub.

Müraciətlərdən 2 680-i doğuşla bağlı olub, onlardan 2 670-i hospitalizasiya edilib. Hospitalizasiyadan imtina edilən hər bir hal barədə Bakı Baş Səhiyyə İdarəsinə, ərazi üzrə qadın məsləhətxanasına, poliklinikaya, hüquq-mühafizə orqanlarına məlumat verilib, ünvana polis əməkdaşları dəvət olunub.

Ümumi müraciətlər arasında 26 700-ə yaxını bədbəxt hadisələrlə əlaqədardır. Bu çağırışlarda 18 300 nəfər stasionara yerləşdirilib. Bədbəxt hadisələr zamanı xəsarət alanların çox hissəsini travmalar (zədələnmələr) təşkil edir. Buraya məişət, nəqliyyat, istehsalat və digər travmalar aiddir. Zədələnənlərin ümumi sayı 21 718 olub, onlardan 13 833-ü hospitalizasiya edilib.

Pediatrik reanimasiya briqadalarının işi təkmilləşdirilib. Səhiyyə Nazirliyi tərəfindən ayrılmış yeni küvez aparatlarının köməyi ilə uzaq rayonlardan gətirilən 20, paytaxtın doğum evlərində anadan olmuş 900 az çəkili və ya ağır qüsurlarla doğulmuş körpənin Respublika Perinatal Mərkəzinə və K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitutuna daşınması icra edilib.

Təcili tibbi yardıma ehtiyacı olan 170 nəfər yaşayış yeri məlum olmayan şəxsə ilkin tibbi yardım göstərilib, onlar cərrah, travmatoloq, toksikoloq və rentgen müayinəsindən keçdikdən, təmiz geyimlə təmin edildikdən sonra müvafiq xəstəxanalara yerləşdiriliblər.




BTTTYS-nin təcili yardım briqadaları poliklinikalar tərəfindən laborator müayinələrin aparılması üçün götürülən materialların daşınmasında yaxından iştirak edir. Belə ki, 2019-cu il ərzində 7 minə yaxın laborator daşınma icra edilib.

BTTTYS-nin 21 bölməsinin hamısına internet xətti çəkilib, kameralar quraşdırılaraq rəhbərlik, həmçinin Əməliyyat və hospital işlərin təşkili şöbəsi tərəfindən bölmələrin işinə nəzarət gücləndirilib, tibb işçilərinin təhlükəsizliyi təmin edilib.

BTTTYS-yə müraciət edən şəxslərin xəstəxanalara səmərəli yerləşdirilməsi məqsədilə Əməliyyat və hospital işlərinin təşkili şöbəsi tərəfindən gündəlik olaraq Bakı şəhərinin tibb müəssisələrində mövcud olan boş çarpayıların sayı barədə məlumat toplanır ki, bu da hospitalizasiya zamanı problemlərin meydana çıxmasının qarşısını alır və xəstələrin ərazi üzrə müvafiq bölgüsünə yardım edir.

Ağır xəstələrin evdə rentgen və ultrasəs müayinəsinin aparılması məqsədilə BTTTYS rəqəmsal və analoji rentgen cihazları, həmçinin ultrasəs aparatları ilə təmin olunub, ağır yataq xəstələrinin müayinəsinin aparılmasına tibbi göstəriş olarsa, həkim çağırışı əsasında portativ rentgen və ya ultrasəs aparatı ilə evdə müayinələr aparılır.

BTTTYS-nin əlavə hazırlıq keçmiş həkim və orta tibb işçiləri 2019-cu ildə Bakıda keçirilmiş IV İslam Həmrəyliyi Oyunları, Formula-1 Azərbaycan Qran-Prisi yarışları, «Olimpiada Gənclər Festivalı», Beynəlxalq İnformatika Olimpiadası, UEFA Avropa Liqası final oyunu, həmçinin 1200-dən artıq beynəlxalq əhəmiyyətli dövlət tədbirləri zamanı zəruri hallarda tədbir iştirakçıları və şəhərimizə gələn qonaqlara ilkin tibbi yardım göstərməklə yaxından iştirak ediblər. Tibb işçilərinin bu ağır əməyi Səhiyyə Nazirliyi tərəfindən yüksək qiymətləndirilib və BTTTYS-nin bir qrup işçisi mükafatlandırılıb.

Stansiyanın həkimləri ixtisas hazırlığının artırılması məqsədilə Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu tərəfindən həyata keçirilən təkmilləşdirmə kurslarında iştirak ediblər. BTTTYS-nin bütün həkim və orta tibb heyəti sertifikasiyadan keçib, bir çoxları yüksək ixtisas dərəcələri alıblar.

## Uşaqların sağlamlığı, təhsili və sosial inkişafı üzrə kurs keçirilib

**Bakıda Azərbaycana birgə Yardım Təşkilatı (UAFA) və ABŞ Vaşinqton Corctaun Universitetinin Uşaq və İnsan İnkişafı Mərkəzinin birgə təşəbbüsü əsasında təşkil olunan CHED kurslarının (uşaqlıq dövründə sağlamlıq, təhsil və sosial inkişaf üzrə baza kursu) ilk təlimi keçirilib.**

Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun mətbuat xidmətindən verilən məlumata görə, məqsəd uşaq inkişafı sahəsində işləyən mütəxəssislər üçün beynəlxalq akkreditasiyalı kurslar təşkil edən bir qurumun — uşaqların sağlamlığı, təhsili və sosial inkişafı sahəsində akademik mərkəzin yaradılmasıdır.

Təlim başa çatandan sonra iştirakçılar test imtahanı verərək, 45 saatlıq praktiki monitorinqdə iştirak ediblər. Monitorinq prosesi hər bir iştirakçının kurs müddətində əldə etdiyi bilikləri təcrübədə uğurla tətbiq etməsi məqsədi daşıyıb.

Ölkəmizdəki ABŞ səfirliyinin dəstəyi ilə təşkil olunmuş kursun yekun tədbirində ABS-ın Corctaun Universitetinin Uşaq və İnsan İnkişafı Mərkəzinin direktoru, Pediatriya fakültəsinin professoru Tobi Lonq iştirakçılar arasında testdən və virtual (online) qiymətləndirmədən uğurla keçənlərə sertifikatlar təqdim edib.



# Klimaks əlamətləri sizi qorxutmasın!

**Qız uşaqlarının yumurtalığında təxminən 450 ədəd ovulyasiya edə biləcək follikul olur. Orta hesabla 12-13 yaşdan 55 yaşa qədər hər ay bir neçə follikul böyüyür, dominant follikul əmələ gəlir, ovulyasiya baş verir və mayalanma baş verməzsə, proses menstruasiya ilə bitir. Yaş artdıqca bu follikulların sayı azalır. Beləliklə, təxminən 40 yaşdan sonra qadın orqanizmində hormonal disbalans yaranır.**

Cinsi hormonlar bir çox orqanların işini idarə edən bioloji aktiv maddələrdir. Qadın cinsi hormonları orqanizmdə müxtəlif metabolik proseslərə nəzərəçarpan təsir göstərir.

Bütün endokrin vəzilərin və yumurtalıqların işini istiqamətləndirən hipotalamusda 40 yaşdan etibarən yaşla bağlı ilkin dəyişikliklər görünür. Neyroendokrin-vegetativ dəyişikliklər başlayır. Yumurtalıqların funksiyası tədricən zəifləyir və qadınların 60-80%-də menopauza inkişaf edir. Klimaksın ən çox rast gəlinən əlamətləri istibasma, yuxusuzluq, tərləmə, başgicəllənmə, oyanıqlıq, miqrenəbənzər baş ağrıları, depressiya, sidik saxlaya bilməmək, osteoporoz, vaginal quruluq və sairdir.

İstibasma klimaksın ən çox yayılan və qadınları ən çox narahat edən simptomu, bu dövrdə qadın orqanizminin hormonal yenidənqurulmasının əlamətidir. Belə ki, bədən temperaturunun normal saxlanmasında mühüm rol oynayan estrogenlərin klimaks vaxtı azalması termorequlyasiyanın qısa müddətli pozulmasına səbəb olur. İstibasmalar bədənin yuxarı hissəsində — üzdə və döş nahiyəsində istilik hissi, tərləmə və ürəkdöyünmə ilə müşayiət olunur. Bəzən tutmalar başgicəllənmə, səbəbsiz həyəcan, təngnəfəslik və zəifliklə özünü büruzə verir. Adətən, 30 saniyədən 3 dəqiqəyə qədər, nadir hallarda 30 dəqiqəyə qədər davam edən və tez-tez titrətmə tutmaları ilə başa çatan istibasmalar özözlüyündə sağlamlıq üçün təhlükəli deyil, amma qadını çox narahat edir. Belə üzücü hallar yorğunluğa, əsəbiliyə, əhvalın pozulmasına və özgüvənin aşağı düşməsinə səbəb olur. Gecə istibasmaları yuxusuzluq yaradır. İstibasmaların baş vermə müddəti individualdır və menopauzanın başlanma müddətindən asılıdır. Əksər hallarda qadınlar bununla klimaksın başlanğıcında (45-55 yaş arasında) rastlaşırlar.

İstibasmalar orqanizmin az miqdar estrogenə adaptasiyası ilə, adətən, öz-özünə keçir. Çox hallarda birinci və axırıncı istibasmalar arasında 1 ildən 3 ilə qədər vaxt keçir. Bəzən 5-10 ilə qədər, nadir hallarda ömür boyu davam edir.

İstibasmaları dərinləşdirən səbəblər həm genetikadan, həm də həyat tərzindən çox asılıdır. Belə ki, stress, narahatlıq, güclü emosional reaksiyalar, qan dövranı və ürək döyünməni artıran qida və içkilər (kəskin ədviyyatlı yeməklər, çay, kofe və alkoqol) belə səbəblərdəndir. Bundan başqa, artıq çəki, qapalı məkan, çox isti və ya sintetik geyim isinməyə və istibasmaların yaranmasına gətirir.

Hormon əvəzləyici terapiya bir çox hallarda klimaksın əlamətlərini tez aradan qaldırır. Lakin onların törətdiyi çoxsaylı yan təsirlər (ödem, iştahanın pozulması, artıq çəki, baş ağrısı, zəiflik, süd vəzilərinin şişkinliyi və s.), istifadəsinə olan əks-göstərişlər (hormondan asılı şişlər, qaraciyər və böyrək çatışmazlığı) bu preparatların istifadəsini xeyli məhdudlaşdırır, alternativ variantların axtarışını zəruri edir.

Hormon qəbul etmədən klimaksın əlaməti olan istibasmalardan necə qorunmaq olar? Birinci növbədə, düzgün diyetə riayət edilməlidir. Gün ərzində 2 litrə qədər su içilməli, duzun miqdarı azaldılmalı, xörəklər əsasən buxarda, sobada hazırlanmalı, quş və balıq ətinə üstünlük verilməli, sosiska, kolbasa, ərinmiş pendir, yağlı kəsmik və başqa süd məhsullarından, kofeinli, alkoqollu, qazlı və şirin içkilərdən imtina olunmalıdır. Şəkər, ağ un, südlü şokolad, karamel və mürəbbələrin istifadəsi azaldılmalıdır. Hər gün qoz ləpəsi, 500-600 qr meyvə-tərəvəz yemək lazımdır. Tünd rəngli yarmalar faydalıdır, onların tərkibində dəmir, B qrup vitaminlər, kalium və maqneziumun miqdarı çoxdur. Qəbizliyin profilaktikası üçün yeməklərə kəpək əlavə etmək olar.

Çəkinin azalması klimaksın bir çox əlamətlərini, o cümlədən, istibasmanı yüngülləşdirir. Paltarlar yüngül, təbii materialdan olmalıdır. İstibasmaları əhəmiyyətli dərəcədə artırdığı üçün stresdən uzaq olmaq vacibdir. Bu məqsədlə **Neurexan** preparatından da istifadə etmək məqsədəuyğundur. **Neurexan** stress hormonu adlanan kortizolun qanda səviyyəsini normallaşdırır, yuxusuzluğu, həyəcanı, narahatlığı aradan qaldırır.










Orqanizmin klimaks dövründə hormonal disbalansa adaptasiyasını asanlaşdırmaq və klimaksın əlamətlərini tez bir müddətdə aradan qaldırmaq üçün Almaniya istehsalı olan **Klimakt-Heel** preparatından geniş istifadə edilir. Preparat menopauza simptomlarından — istibasma, yorğunluq, emosional qeyri-stabillik, yuxusuzluq, qorxu, həyəcan, miqrenəbənzər baş ağrıları, başgicəllənmə və s. əziyyət çəkən qadınlar üçün əvəzolunmazdır. **Klimakt-Heel** çoxkomponentli, nanodozalarda olan biotənzimləyici preparatdır. Yeddi komponentin unikal kombinasiyası sayəsində hormonal disbalansı tənzimləyir və adaptasiyanı asanlaşdırır.

**Qəbul qaydası:** 1 tab. — ilk günlər gündə 6-8 dəfə, sonra gündə 3 dəfə, dil altına, yeməkdən 30 dəq. əvvəl və ya 1 saat sonra.

Osteoporozdan qorunmaq üçün **Klimakt Heel**-lə bir yerdə **Osteoheel** preparatından istifadə etmək olduqca effektlidir.

**Qəbul qaydası:** 1 tab, — gündə 3 dəfə, dil altına yeməkdən 30 dəq. əvvəl və ya 1 saat sonra.

**Preparatların heç bir əlavə təsiri, əks göstərişi yoxdur.**


## AŞAĞIDAKI TİBB MÜƏSSİSƏLƏRİ GÖSTƏRİLƏN VAKANT YERLƏRƏ MÜSABİQƏ ELAN EDİR

**Qazax Rayon GEM**

Həkim-entomoloqun köməkçisi-1.0

*Ünvan: N.Nərimanov küç., 13*

*Tel: (02229) 5-52-00*

**Şamaxı Rayon GEM**

Həkim-epidemioloqun köməkçisi - 1.0

*Ünvan: Qədirli küç., 61*

*Tel: (02026) 5-73-65*

**Məhkəmə Psixiatrik Ekspertiza Mərkəzi**

Tibb bacısı (qardaşı) - 5.0

*Ünvan: A.Hüseyn küç., 69/71*

*Tel: 455-44-79*

**Sumqayıt Şəhər GEM**

Sanitar-Feldşer - 1.0

*Ünvan: Natavan küç., 30*

*Tel: (01865) 5-94-05*

**ATU-nun Tədris Terapevtik Klinikası**

Laborant - 1.0

*Ünvan: Mərdənov qardaşları küç., 1001 məh.*

*Telefon: 441-33-18*

***Qeyd:*** *Müsabiqədə iştirak etmək istəyən namizədlər elan dərc olunduğu gündən etibarən 30 gün ərzində aşağıdakı sənədləri elanda qeyd olunan ünvana təqdim etməlidirlər:*

- *müəssisə rəhbərinin adına yazılmış ərizə;*
- *şəxsiyyət vəsiqəsinin surəti;*
- *təhsil və ixtisas haqqında sənədlərin surəti;*
- *əmək kitabçasının surəti (mövcud olduğu halda);*
- *sağlamlıq haqqında arayış;*
- *nikah haqqında şəhadətnamənin surəti (mövcud olduğu halda).*


**Başsağlığı**

37 nömrəli Şəhər Poliklinikasının kollektivi baş həkim Təranə Məmmədovaya həyat yoldaşı **RƏŞAD MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**


**Baş redaktor:** N.MƏCİDOVA

**Baş redaktorun müavini:** S.NƏBİYEVA

**Yayım direktoru:** Ş.MURADOV

**Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.**

**Təsisçi:** Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

**Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər. Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmir.**

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır. Qeydiyyat nömrəsi: B92**

**Ünvan: Cəfər Cabbarlı, 34. 1-ci mərtəbə**

**E-mail: tibbqazeti@mail.ru**

**Tel./fax: 596-06-61**

**Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və «CBS polygraphic production» mətbəəsində çap olunmuşdur.**

**İndeks: 1065**

**Tiraj: 21900**

# Tibb Universitetinin Anatomiya kafedrasının 100 illiyi qeyd olunub

**Azərbaycan Tibb Universitetinin (ATU) İnsan anatomiyası və tibbi terminologiya kafedrasının 100 illik yubileyinə həsr edilmiş Beynəlxalq elmi-praktik konfrans keçirilib.**

Tədbirdə **ATU-nun rektoru, professor Gəray Gəraybəyli** çıxış edərək, kafedranın yaranma tarixi, keçdiyi yol və fəaliyyət istiqamətləri barədə danışıb. O qeyd edib ki, Azərbaycan Tibb Universitetinin anatomiya kafedrası 1919-cu ildə Bakı Dövlət Universitetinin ilk ən böyük fakültəsi olan Tibb fakültəsinin nəzdində yaradılıb. Fəaliyyətə başlayandan indiyədək həmin kafedrada 85 mindən çox tibbi kadr və səhiyyə işçisi təhsil alıb. 1930-cu ildə həmin fakültənin bazasında Azərbaycan Dövlət Tibb İnstitutu yaradılanda kafedra həmin institutun nəzdində fəaliyyətini davam etdirib.

Professor G.Gəraybəyli xatırladıb ki, Bakı Dövlət Universitetinin ilk rektoru olan görkəmli cərrah-anatom, Əməkdar elm xadimi, professor Vasili Razumovski həm də Anatomiya kafedrasının ilk müdiri vəzifəsini yerinə yetirib. O, 1919-cu il noyabrın 20-də Bakı Dövlət Universitetində «Tibbə və anatomiyaya giriş» mövzusunda ilk mühazirə oxuyub. Bununla da Azərbaycanda ali tibb təhsilinin təməli qoyulub.

Kafedra ayrı-ayrı illərdə müxtəlif ünvanlarda yerləşib, 1949-cu ildən isə tədricən tikintisi hələ tamamlanmamış və xüsusi olaraq morfoloji fənlərə aid kafedralar üçün nəzərdə tutulan yeni dördmərtəbəli binaya köçürülüb. 1953-cü ildə köçürülmə tam başa çatdırılıb. Həmin vaxtdan əsaslı təmir-bərpa işləri aparılmayan kafedrada Prezident İlham Əliyevin səhiyyəyə və tibb təhsilinə diqqəti və dövlət qayğısı sayəsində 2018-2019-cu tədris ilində maddi-texniki bazanın yenidən qurulmasına başlanıb. Ən müasir innovativ avadanlıqlarla təchiz edilmiş yeni tədris və elm mərkəzi kafedranın 100 illik yubileyinə ən böyük ərməğandır.

**Təhsil naziri Ceyhun Bayramov** öz çıxışında qeyd edib ki, Xalq Cümhuriyyətinin yadigarı olan Bakı Dövlət Universitetinin ilk yeddi rektorundan altısı ixtisasca həkim olub. O, universitetin nəzdindəki Tibb fakültəsinin Anatomiya kafedrasının tarixi, burada dərs deyən ziyalı və alimlər, onların ölkədə tibb təhsilinin inkişafı naminə gördüyü işləri diqqətə çatdırıb. Kafedranın inkişafında Mustafa bəy Topçubaşov, Əziz Əliyev, Məmmədəmin Əfəndiyev, İvan Şirokoqorov, Kamil Balakişiyev və digər məşhur Azərbaycan alimlərinin böyük xidmətləri xüsusi qeyd olunub.

**Səhiyyə nazirinin müavini Elsevər Ağayev** qeyd edib ki, son vaxtlar ölkə səhiyyəsinin inkişafına, səhiyyə sisteminin



idarə edilməsinin təkmilləşdirilməsinə, tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsinə və yeni tibbi texnologiyaların tətbiqinə yönəlmiş tədbirlər həyata keçirilir, tibbi kadrların, o cümlədən patoloji anatomiya və insan anatomiyası üzrə mütəxəssislərin hazırlanması sahəsində ciddi uğurlar qazanılır. Nazir müavini Azərbaycan Dövlət Tibb Universitetinin ilk rektorlarından olan görkəmli dövlət və elm xadimi, professor Əziz Əliyevin 1932-ci ildə bütün kafedralarda milli dildə dərsliklər yazılması barədə göstəriş verdiyini bildirib. Normal anatomiya kafedrasında bu iş kafedranın dosenti Kamil Balakişiyevə tapşırılıb. Alim keçən əsrin 30-cu illərində ilk dəfə türk (Azərbaycan) dilində, latın qrafikası ilə dərslik və dərs vəsaitləri yazaraq, azərbaycanlı tələbələrin, eləcə də müəllimlərin işini xeyli asanlaşdırıb.

**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Riyaziyyat və Mexanika İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor Misir Mərdanov** hər bir təhsil ocağının bir özəyi olduğunu vurğulayıb, bildirib ki, bir əsrlik yaşı olan İnsan anatomiyası və tibbi terminologiya kafedrası Tibb Universiteti üçün məhz belə bir rola malikdir.

1990-1995-ci illərdə İnsan anatomiyası kafedrasının müdiri olmuş **Əməkdar elm xadimi, professor Rafiq Əsgərov** 1937-1973-cü illərdə kafedraya görkəmli alim, professor Kamil Balakişiyevin rəhbərlik dövrünü xatırladıb. Onun sözlərinə görə, həmin dövrdən etibarən kafedrada milli kadrların hazırlanmasına, onun nəzdində fəaliyyət göstərən tədris muzeyinin zənginləşdirilməsinə və inkişafına xüsusi diqqət yetirilib.

**ATU-nun İnsan anatomiyası və tibbi terminologiya kafedrasının müdiri, Əməkdar elm xadimi, professor Vaqif Şadlinski** kafedranın əməkdaşlarının əməyinə verilən yüksək qiymətə görə kollektivin dərin minnətdarlığını ifadə edib. Bildirib ki, hər sahədə olduğu kimi, tibb təhsili və tibb elmi sahələrinə də yaxından dövlət qayğısı göstərən Prezident İlham Əliyevin diqqəti sayəsində 2018-2019-cu tədris ilində kafedranın maddi-texniki bazası yenidən qurulub, ən müasir innovativ avadanlıqlarla təchiz edilib. Diqqətə çatdırılıb ki, 2004-2005-ci tədris ilindən başlayaraq «İnsan anatomiyası» fənni xarici tələbələr üçün ingilis dilində tədris olunur.

Konfransda Türkiyə, Gürcüstan və Başqırdıstan tibb təhsili müəssisələrinin anatomiya kafedralarının rəhbərləri çıxış edərək, ATU-nun İnsan anatomiyası və tibbi terminologiya kafedrası ilə bağlı xatirələrini bölüşüblər, kafedranın kollektivini yubiley münasibətilə təbrik ediblər. Eyni zamanda, ölkəmizdə tibb elminin və səhiyyənin inkişafı, əhalinin sağlamlığının mühafizəsi istiqamətində gələcək fəaliyyətlərində kafedra əməkdaşlarına uğurlar arzulayıblar.

# Azərbaycan Nevrologiya Həftəsi çərçivəsində konfranslar keçirilib

**Bakıda Azərbaycan Nevrologiya Həftəsi çərçivəsində I Azərbaycan Uşaq Nevroloqları Konfransı və VII Azərbaycan Nevroloqları Konfransı keçirilib. Tədbirdə ölkəmizin nevroloqları ilə yanaşı, Türkiyə, Qazaxıstan, Rusiya və s. ölkələrdən gələn mütəxəssislər, o cümlədən ilk dəfə olaraq Avropa Uşaq Nevroloqları Cəmiyyətinin nümayəndələri iştirak ediblər.**



Konfransda çıxış edən Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun (ADHTİ) Nevrologiya və klinik neyrofiziologiya kafedrasının müdiri, Milli Nevroloqlar Assosiasiyasının sədri, professor Rəna Şirəliyeva həftə çərçivəsində bir sıra tibb müəssisələrində tədbirlər keçirildiyini və nevrologiyanın aktual problemlərinin müzakirə olunduğunu bildirib. O, ölkəmizdə nevroloqların hazırlanması üçün Azərbaycan Tibb Universiteti (ATU) və ADHTİ-nin baza rolu oynadığını qeyd edib. Assosiasiyanın sədri «Azərbaycan nevrologiyasının dünəni, bu günü və sabahı» mövzusunda təqdimatla çıxış edərək, tibbin bu sahəsinin tarixi haqqında məlumat verib və onun gələcəyinin gənc və istedadlı nevroloqların peşə hazırlığından asılı olduğunu diqqətə çatdırıb.

Sonra nevrologiyanın müasir vəziyyətini əks etdirən videoçarx nümayiş olunub.

ATU-nun rektoru, professor Gəray Gəraybəyli Azərbaycanda tibb elminə və təhsilinə göstərilən qayğı nəticəsində ölkəmizdə yüksək səviyyəli tədbirlərin keçirildiyini və orada iştirak edən alim və mütəxəssislərin məruzələrinin həkim, tələbə və rezidentlər üçün olduqca faydalı olduğunu bildirib.

Əziz Əliyev adına ADHTİ-nin rektoru, professor Nazim Qasımov Azərbaycan Nevrologiya Həftəsi çərçivəsində keçirilən tədbirlərin təkcə nevroloqlar üçün deyil, səhiyyənin digər sahələrində çalışan həkimlər üçün də əhəmiyyətli olduğunu, həmçinin ölkəmizdə nevrologiyanın inkişafı sahəsində əldə edilən uğurları diqqətə çatdırıb.

Konfranslarda «Miqrenin patofiziologiyasında KATF kanallarının rolu», «Epilepsiyanın terapevtik effektivliyinin kontrolu və proqnozlaşdırılması ilə multidissiplinar instrumental diaqnostikası», «Onurğa beyninin damar malformasiyaları: radioloji diaqnostika və endovaskulyar müalicə», «Karotid arteriya stenozunun müalicəsi», «Psixomotor tutmaların diaqnostikası və terapiyası», «Narahat ayaqlar sindromu», «Uşaqlarda mərkəzi sinir sisteminin neoplastik xəstəlikləri və onların cərrahi müalicəsi», «Uşaqlarda epilepsiya və epileptik sindromların müasir təsnifatı» və s. mövzularda məruzələr dinlənilib, müzakirələr aparılıb.

Qeyd edək ki, Azərbaycan Nevrologiya Həftəsi çərçivəsində Türkdilli ölkələrin IV Beynəlxalq Nevrologiya Konqresi və «EPNS» tədris kursları da keçirilib.

# Professor İsmayıl Məmmədovun 100 illik yubileyi keçirilib

**Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Cərrahiyyə Klinikasında tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi İsmayıl Məmməd oğlu Məmmədovun 100 illik yubileyi qeyd edilib.**



Yubiley tədbirində çıxış edən **ATU-nun tədris işləri üzrə prorektoru, professor Sabir Əliyev** yubilyarın həyat və fəaliyyəti ilə bağlı geniş söhbət açıb. O, professor İ.Məmmədovun bir alim, ziyalı kimi Azərbaycanda çoxsaylı gənc alimlərin yetişməsində müstəsna rolundan danışıb.

Sonra **I Cərrahi xəstəliklər kafedrasının müdiri, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Nuru Bayramov** görkəmli alimin keçdiyi həyat yolundan, elmi və həkimlik fəaliyyətindən bəhs edən məruzə ilə çıxış edib.

Professorlardan Çingiz Quliyev, Saday Hənifəyev, dosentlərdən Rəfael Mehdiyev, Səxavət Əliyev də alimlə bağlı maraqlı xatirələrini danışıb, onun keçdiyi həyat yolunun gənclərə örnək olduğunu xüsusi vurğulayıblar.

Sonda yubilyarın qohumu Əli Həsənov tədbirin təşkili üçün Səhiyyə naziri Oqtay Şirəliyevə, ATU-nun rəhbərliyinə, əməyi keçən hər kəsə, eləcə də iştirakçılara professor İ.Məmmədovun ailəsi və qohumları adından dərin minnətdarlığını bildirib. Tədbirdə çıxış edənlər alimin parlaq xatirəsinin yaxınlarının, tələbələrinin, müəllim kollektivinin qəlbində daim yaşayacağını söyləyiblər.


2020
"HB Co LTD" şirkəti
Azərbaycan xalqını
Dünya Azərbaycanlılarının
Həmrəylik Günü və
Yeni il bayramı
münasibətilə
səmimi qəlbdən
təbrik edir.
HB Co LTD
Sağlam gələcək -
bizimlə gələcək!


Əziz tibb işçiləri!
Sizi Dünya Azərbaycanlılarının
Həmrəylik Günü və
Yeni il münasibətilə ürəkdən
təbrik edir, sizə möhkəm
cansağlığı, firavanlıq və səadət
dolu günlər arzulayırıq!